Gündəlik ictimai-siyasi qəzet

# XALQ QƏZETİ

№ 63 (29035) 19 mart 2019-cu il, çərşənbə axşamı

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye nazirini qəbul edib



❒ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.*

Azərbaycana səfərindən məmnun olduğunu bildirən Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğuladı.

Azərbaycanla münasibətlərin ölkəsinin xarici siyasətinin gündəliyində duran ən önəmli istiqamətlərdən biri olduğunu deyən Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanları yaradılmasını ölkəsində yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı "OPEC plus" formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunuldu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezidenti, Baş naziri və Dubay Əmirinə və Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

**Novruz bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2019-cu il**

## Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 6 807 400 (altı milyon səkkiz yüz yeddi min dörd yüz) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2019-cu il**

## Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5,0 (beş) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2019-cu il**

## Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Salyan şəhərində Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 mart 2019-cu il**



Bakıda OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclası keçirilib

▸▸2



Əfv sərəncamı məhkum edilmiş Azərbaycan vətəndaşlarının böyük bir qrupuna şamil olundu

▸▸4



Cəbhə bölgəsində bayram tonqalları

▸▸6



R.T.ƏRDOĞAN: Ankaranın "S-400" raketləri ilə bağlı sazişdən geri çəkilmək fikri yoxdur

▸▸8

# KİVDF-nin 10 illik yubileyi qeyd edilib

***❒ Martın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaranmasının 10 illik yubileyi qeyd edilib.***



Tədbir çərçivəsində yubiley və Novruz bayramı münasibətilə elan olunmuş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Tədbirdə əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib.

Sonra Fondun 10 illik fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Fondun icraçı direktoru Vüqar Səfərli KİVDF-nin müxtəlif dövlət qurumları ilə birgə həyata keçirdiyi işlərdən danışıb. Bildirib ki, ötən 10 il ərzində Fond tərəfindən xeyli iş görülüb. Jurnalistlərin peşəkarlığının artırılması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işləri xüsusi qeyd etmək olar. Fond ildə üç dəfə - Novruz bayramı, milli mətbuatımızın yaranması günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müsabiqələr keçirir. Budəfəki müsabiqədə 54 KİV-dən 145 jurnalist iştirak edib. Onlardan 114-ü mükafatlara layiq görülüb.



İcraçı direktor Azərbaycan mətbuatına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə KİV nümayəndələri adından minnətdarlığını bildirib, eyni zamanda, dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək KİVDF-nin milli mətbuatımızın həyatında əhəmiyyətli rol oynadığını bildirib. Əli Həsənov qeyd edib ki, Fond ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş müstəqil media siyasətinin həyata keçirilməsində önəmli xidmətlər göstərib. Bu Fondun yaradılması təşəbbüsü Prezident İlham Əliyev tərəfindən irəli sürülüb. On il əvvəl dövlətimizin başçısı Fondun yaradılması ilə bağlı sərəncam imzaladı. Ondan bir il əvvəl isə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası qəbul olundu. Həm Konsepsiyanın qəbul olunması, eləcə də Fondun təsis edilməsi Azərbaycanda dövlətin mediaya qayğısını və dəstəyini sistemli halda həyata keçirən vahid mexanizmin yaradılmasını ehtiva edirdi.



Əli Həsənov bildirib ki, on ildir Azərbaycan dövlətinin KİV-lərin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasına, jurnalistlərin sosial problemlərinin həll edilməsinə göstərdiyi dəstək şəffaf şəkildə həyata keçirilir. Ötən on ildə kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması ilə bağlı nə iş görülübsə kollegial şəkildə, KİVDF-nin Müşahidə Şurasının bilavasitə nəzarəti ilə həyata keçirilib. İstər mənzillərin paylanması, istər fərdi yazı müsabiqələrinin keçirilməsi və qaliblərin elan olunması, istərsə də kütləvi informasiya vasitələrinə tirajına və onların potensialına uyğun illik yardımların göstərilməsi tam şəffaf və ədalətli sistem üzrə həyata keçirilib.

"Mən Azərbaycan mediasına göstərdiyi sistemli və şəffaf dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Prezident İlham Əliyevin bu siyasətinin həyata keçirilməsində iştirak edən hər kəsə, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təşəkkür edirəm", - deyə Prezidentin köməkçisi qeyd edib.

Sonra fərdi jurnalist yazılarının qalibləri mükafatlandırılıb. Qaliblər arasında AZƏRTAC-ın müxbiri Nəriman Həsənov da var.

Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək jurnalist peşəsinin şərəfli peşə olduğunu bildirib. O, ulu öndər Heydər Əliyevin hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın və onun mediasının inkişafı üçün gördüyü işlərdən danışıb. Bildirib ki, bu gün Azərbaycanın qazandığı uğurları gələcək nəsillərə çatdırmaq vəzifəsi mətbuatın üzərinə düşür. F.Heydərov Azərbaycan mediasının bu şərəfli missiyanı layiqincə yerinə yetirəcəyinə əmin olduğunu bildirib.

Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və digərləri media nümayəndələri ilə əməkdaşlığa görə Fəxri diploma layiq görülüblər.

Nazir Əbülfəs Qarayev bu gün ölkəmizdə medianın uğurla inkişaf etdiyini bildirib. O qeyd edib ki, bu gün Azərbaycan mediası ölkəmizin əldə etdiyi uğurları beynəlxalq aləmə çatdırmaq kimi şərəfli vəzifəni layiqincə yerinə yetirir.

Tədbir bədii hissə ilə davam edib.

**AZƏRTAC**

# Azərbaycan ilə Almaniya arasında əməkdaşlığa dair müzakirələr aparılıb



***❒ Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyaya səfəri çərçivəsində bu ölkənin Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Orta Asiya üzrə ofisinin rəhbəri səfir Maykl Siebert ilə görüşüb.***

Bu barədə Hikmət Hacıyev özünün "Tvitter" səhifəsində bildirib.

Görüşdə ikitərəfli əlaqələr, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində şöbə müdirinin Almaniya Prezidenti və Kansleri Aparatında, aparıcı elmi-tədqiqat mərkəzlərində görüşləri, həmçinin Bundestaqda Cənubi Qafqaz mövzusunda çıxışı nəzərdə tutulub.

**AZƏRTAC**

# Bakıda OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclası keçirilib

***❒ Martın 18-də Bakıda OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclası keçirilib.***




Toplantıda 14 neft istehsalçısı ölkə və OPEC Katibliyi yüksək səviyyədə təmsil olunub.

Toplantıda OPEC-in baş katibi Məhəmməd Barkindo, OPEC prezidenti, Venesuelanın neft naziri və Dövlət Neft Şirkətinin prezidenti Manuel Kevedo Fernandes, JMMC-nin sədri, Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih iştirak edib. Tədbirdə, həmçinin OPEC üzvləri Əlcəzair, Birləşmiş Ərəb Əmirliklərinin, Küveyt, İraq, Liviya, Nigeriya, Konqo, qeyri-OPEC ölkələrindən isə Rusiya, Qazaxıstan, Bəhreyn və Bruney nazir və yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil edilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov qeyd edib ki, bu tədbir Prezident İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə baş tutur: "Bu təklifin qəbulu neft bazarının tənzimlənməsi məqsədilə "OPEC plus" formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Azərbaycan Prezidentinin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisidir. Belə ki, hələ 2016-cı ilin yanvarında Azərbaycan Prezidenti qiymət sabitliyinə nail olmaq üçün Davos Forumunda belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürərək bildirib ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər".

"Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan "OPEC plus" əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirir. Eləcə də bu formatda keçirilən tədbirlərə ev sahibliyi edir. Azərbaycan neft bazarının tənzimlənmə prosesinə töhfə verməkdə davam edəcək", - deyə P.Şahbazov bildirib.

Birgə Monitorinq Komitəsinin sədri Xalid Əbdüləziz Əl Falih deyib ki, qlobal neft tədarükünün səviyyəsini normallaşdırmaq əsas məqsədlərdəndir. Bildirib ki, ötən il qlobal neft bazarında balansın formalaşdırılması üçün mühüm addımlar atılıb. Bu gün neftin qiymətinin məqbul səviyyədə olması OPEC və "OPEC plus" formatında əməkdaşlığın nəticəsidir.

"Bugünkü iclasın neftin vətənində, Bakıda keçirilməsi çox əlamətdardır. Hazırda Azərbaycan "OPEC plus" formatında əməkdaşlığın fəal iştirakçısıdır", - deyə nazir vurğulayıb.

OPEC prezidenti Manuel Kevedo Fernandes son dövrlərdə neft bazarının balanslaşdığını bildirib.

OPEC-in baş katibi Məhəmməd Barkindo isə neft bazarındakı vəziyyətin müzakirəsi baxımından Bakıdakı iclasın əhəmiyyətini qeyd edib.

Toplantıda OPEC-in bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı, Müştərək Texniki Komissiyanın (JTC) fevral ayı üzrə hasilat göstəricilərindən bəhs edən hesabatı və qlobal neft bazarında son inkişaflar müzakirə edilib. Həmçinin JTC-nin bazarın balanslaşdırılması üzrə tövsiyələri və neft istehsalının azaldılmasına dair öhdəliklərə əməletmə səviyyəsi nəzərdən keçirilib.

İclasın yekununa dair mətbuat konfransında Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih bildirib ki, OPEC-ə üzv və kartelə daxil olmayan bəzi ölkələrlə əldə olunan neft hasilatının azaldılmasına dair sazişə fevralda 90 faiz əməl edilib. Nazir qeyd edib ki, JMMC neft bazarında baş verən proseslərdən razıdır. "Əməkdaşlıq Bəyannaməsi"ndə iştirak edən ölkələrin sazişə əməletmə səviyyəsi fevral ayında 90 faiz olub. Komitə üzv ölkələrin fevral ayı ərzində kollektiv fəaliyyətindən məmnundur. Bildirib ki, yanvarda isə sazişə əməletmə səviyyəsi 83 faiz olub.

Energetika naziri Pərviz Şahbazov deyib ki, "OPEC plus" formatı yaradılandan indiyədək Azərbaycan öz öhdəliyini müvəffəqiyyətlə və tam yerinə yetirib. Azərbaycan "OPEC plus" çərçivəsində öhdəliklərinin yerinə yetirilməsi göstəricilərini yaxşılaşdıracaq.

Mətbuat konfransında qeyd olunub ki, Müştərək Texniki Komissiya və Birgə Monitorinq Komitəsinin növbəti iclasları bu ilin mayında Ciddədə keçiriləcək. Dörd ölkə - İraq, Qazaxıstan, Nigeriya və Birləşmiş Ərəb Əmirlikləri Birgə Monitorinq Komitəsinə yeni üzv seçilib.

Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin iclasından bir gün əvvəl - martın 17-də Bakıda Müştərək Texniki Komissiyanın 27-ci iclası da keçirilib.

Xatırladaq ki, Azərbaycanda fevral ayı üzrə gündəlik neft hasilatı 806 min barrel olub. Bunun 722 min barrelini xam neft, 84 min barrelini kondensat təşkil edib. Gündəlik 572,9 min barrel xam neft, 84 min barrel kondensat, 18 min barrel isə neft məhsulları ixrac olunub. Energetika Nazirliyi fevralda gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

Ötən il gündəlik neft hasilatı 792,6 min barrel olub.

2018-ci il dekabrın 7-də Vyanada OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən, cari ilin yanvarından etibarən Azərbaycan sutkalıq hasilatın təxminən 20 min barrel azaldılması ilə bağlı öhdəlik götürüb.

**AZƏRTAC**

# Xalid əl-Falih: Səudiyyə Ərəbistanı Azərbaycanla iqtisadiyyatın bütün sahələrində əməkdaşlığın dərinləşməsinə maraq göstərir

***❒ Bakıda səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz əl-Falih AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb.***

***– Cənab nazir, Prezident İlham Əliyevlə görüşünüzdə nə kimi məsələlər müzakirə edildi? Azərbaycan ilə Səudiyyə Ərəbistanının xoş münasibətlərinin, ölkələrimiz arasında yüksələn xətlə inkişaf edən əməkdaşlığın əsasında hansı amillər dayanır?***

– Mən bizə qardaş və dost dövlət olan Azərbaycana səfərimdən çox məmnunam. Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında əlaqələr uzun əsrlik tarixi köklərə malikdir. Xalqlarımızı bir-birinə ortaq dini-mədəni irs, ortaq mənəvi dəyərlər bağlayır. İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səud və vəliəhd şahzadə Məhəmməd bin Salman Al Səudla Azərbaycan rəhbərliyinin, Prezident İlham Əliyevin siyasi baxışları çox yaxındır.

Ötən iki həftə ərzində Səudiyyə Ərəbistanının yüksək vəzifəli şəxsləri Azərbaycana səfərlər edib. Bu səfərlərin məqsədi Krallıqla Azərbaycan arasında əlaqələri gücləndirməkdir. İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralının nümayəndəsi şahzadə Turki Al Faysal Bakıya səfəri zamanı Prezident İlham Əliyevlə görüşərək Kralın xüsusi məktubunu ona çatdırıb. Eləcə də Bakıda Azərbaycan və Səudiyyə Ərəbistanı



arasında Müştərək Komissiyanın növbəti iclası keçirilib.

Mənim də Azərbaycanın energetika və sənaye sahələrini təmsil edən hökumət rəsmiləri ilə bir neçə görüşüm oldu. Biz neft bazarlarının tənzimlənməsi məsələlərini müzakirə etdik.

Məni Prezident İlham Əliyev də qəbul etdi. Cənab Prezidentə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd şahzadə Məhəmməd bin Salman Al Səudun salamlarını çatdırdım. Bildirdim ki, Kral Azərbaycan rəhbərliyinə, hökumətinə və xalqına ehtiramla yanaşır və ölkənizin regionda, eləcə də İslam dünyasında oynadığı konstruktiv rolu yüksək dəyərləndirir. Həmçinin neft bazarlarının sabitləşməsində Azərbaycanın bizimlə - Səudiyyə Ərəbistanı ilə birlikdə OPEK+ formatında oynadığı konstruktiv rolu təqdir edir.

Prezidentlə görüşdə Krallığın təkcə neft sahəsində deyil, qarşılıqlı investisiyaların və ixracın təşviqi sahələrində də Azərbaycanla daha geniş iqtisadi əməkdaşlığa hazır olduğunu bildirdim. Azərbaycan Prezidentinin və Səudiyyə Ərəbistanı rəhbərliyinin mövqeləri bu məsələdə də üst-üstə düşür. Söhbət zamanı Prezident İlham Əliyev bərpaolunan enerji sahəsində də əməkdaşlığın vacibliyini vurğuladı. Bunun nəticəsi olaraq, martın 17-də Səudiyyə Ərəbistanı şirkəti ilə Azərbaycanın Energetika Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum imzalandı.

Söhbət zamanı ticarət əlaqələrinin inkişafı, investisiyaların təşviqi, eləcə də turizm sahəsində əməkdaşlıq məsələlərinə toxunduq.

Azərbaycan səudiyyəli turistlərin üzünə açıqdır. Mən Azərbaycan xalqının qonaqpərvərliyinin və səudiyyəli qonaqlara xoş münasibətinin şəxsən şahidiyəm. Bunu əvvəlki səfərlərimdə də, Bakıya budəfəki gəlişim zamanı da bir daha gördüm.

***– Bildiyimizə görə, Səudiyyə Ərəbistanının 2030-cu ilədək inkişaf proqramı var. Bu proqram çərçivəsində Azərbaycanla əlaqələrə nə kimi yer ayrılır?***

– Qeyd etdiyiniz proqram ölkə iqtisadiyyatının şaxələndirilməsini nəzərdə tutur. Bu konsepsiyada əsasən Krallıqda sənaye, metallurgiya, bərpaolunan enerji, turizm, xidmət sektorlarının inkişafına xüsusi önəm verilir.

Bu gün bir qrup azərbaycanlı iş adamı ilə görüşdüm. Onlar iqtisadiyyatın müxtəlif sahələrini - tikinti, metallurgiya, neft-qaz, xidmətlər, otelçilik sektorlarını təmsil edirlər. Biz ölkəmizdə məhz bu sahələrin inkişafına çalışırıq. Səudiyyə Ərəbistanı bütün dost ölkələrdən, o cümlədən Azərbaycandan investisiyalara açıqdır. Krallıq hökuməti investorlar üçün münbit şərait yaradıb. Azərbaycan və digər Xəzəryanı ölkələr öz təcrübəsini Səudiyyə Ərəbistanı ilə bölüşə, eləcə də Səudiyyə Ərəbistanından platforma kimi istifadə edərək, region və Afrika bazarlarına çıxa bilərlər.

**AZƏRTAC**

# Prezident İlham Əliyev humanizm prinsiplərinə sədaqətin daha bir nümunəsini nümayiş etdirdi



## Avropa İttifaqı Prezident İlham Əliyevin əfv sərəncamını alqışlayır

**Avropa İttifaqı (Aİ) Azərbaycanda 400-dən çox məhbusun əfv edilməsini alqışlayır. Bu barədə təşkilatın yaydığı bəyanatda deyilir. Bəyanatda qeyd olunur ki, Avropa İttifaqı Azərbaycandan gələcəkdə də bu cür addımlar gözləyir. Aİ bildirir ki, əməkdaşlığın vacib elementi olan insan hüquqları sahəsi də daxil olmaqla, əməkdaşlığın genişləndirilməsi üçün Azərbaycanla qarşılıqlı fəaliyyəti davam etdirəcək.**

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə 431 nəfər əfv edilib.

Əfv sərəncamı şamil edilənlərdən 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir nəfərin cəzası 25 il, 2 nəfərin cəzası isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib.

Azadlıqdan məhrum etmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər də cəzadan azad olunub.

Bunda başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər, islah işləri cəzasına məhkum edilmiş 3 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.

1 nəfər ictimai işlər cəzası, 12 nəfər isə cərimə cəzasından azad edilib.

Əfv sərəncamı 14 xarici vətəndaşa, o cümlədən 3 Gürcüstan, 2 Rusiya, 2 Nigeriya, hərəsinə 1-i olmaqla Türkiyə, İran, Özbəkistan, Çin, Kamerun, Hindistan, Belarus vətəndaşlarına da şamil olunub.

## Əfv sərəncamı əlamətdar hadisəyə çevrildi

**Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əfv sərəncamının imzalanması artıq ənənə halını alıb və belə sərəncamların hər biri yüzlərlə vətəndaşımızın ailələrinə sonsuz sevinc bəxş edib. Bunu Trend-ə Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.**

Deputat qeyd edib ki, məhkum edilmiş şəxslərin əfv edilməsi hər şeydən əvvəl böyük humanizmdir: “Buna paralel olaraq həm də Azərbaycanda həyata keçirilən davamlı hüquqi islahatlar cəza siyasətinin humanistləşdirilməsi üçün şərtlər formalaşdırır, xüsusi təhlükəli hallar istisna olmaqla cəzanın yüngülləşdirilməsi imkanları yaradır. Budəfəki sərəncamla 400-dən çox vətəndaşımız əfv edildi. Əfv olunanlar arasında xarici ölkə vətəndaşları da var. Əfvetmə cəmiyyətimizdə, ictimai rəydə olduqca müsbət hadisə kimi qarşılandı və şübhəsiz ki, ümumi ictimai həmrəylik baxımından əlamətdar hadisəyə çevrildi”.

Deputat əlavə edib ki, hər bir



cəmiyyətdə ayrı-ayrı fərdlər və sosial təbəqələr bəzən hüququ texniki baxımdan özünəməxsus şəkildə şərh edir və elə ona uyğun olaraq da dərk edirlər:

“Məhkəmə-hüquq sistemi nə qədər adil olursa-olsun, hüquqi qərarlar bəzən subyektiv prizmadan yozulur. Əfv sərəncamları həm də bu məsələdə ümumiləşdirici və birləşdirici funksiya yerinə yetirməklə ümumi münasibətlər sistemində müsbət hal kimi assosiasiya olunur. Əlbəttə, bu faktor da vacibdir və pozitiv əhvali-ruhiyyə yaratmaq baxımından əhəmiyyətlidir. Məsələnin ən mühüm tərəflərindən biri də əfvin Azərbaycan Prezidentinin siyasi iradəsi və xalqımızın humanist ənənələrinə söykənməsi əsaslarında baş tutmasıdır. Azərbaycan hakimiyyəti bunu müstəqil siyasi iradəsinə söykənərək edir və bu zaman hələ 1995-cil ildə qəbul edilmiş Konstitusiyamızın yaratdığı hüquqi fəlsəfəyə istinad edir. Ona görə də Azərbaycan cəmiyyətində vaxtaşırı əfv olacağı ilə bağlı bir gözlənti olur və bu da insanlarda həmişə ümid yaradır. Məhkum edilmiş şəxslər isə bu hadisəni öz səhvlərini bir daha təkrar etməmək üçün fürsət kimi görürlər. Beləliklə, əfv hadisəsi hüquqi cəzadan da artıq tərbiyəedici vasitəyə çevrilir. Ona görə də imzalanan hər əvf sərəncamı cəmiyyətimiz və məhkumluqdan azad edilənlər üçün sözün həqiqi mənasında əlamətdar hadisəyə çevrilir”.

## Bayramlara bayram qatan sərəncam





***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əfv sərəncamının imzalanması məhkum üzvü olan ailələrin bayram sevincinə əlavə sevinc qatdı. Bunu Trend-ə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib.***

Deputat Prezident İlham Əliyevin əfv sərəncamı verməsini dövlət başçısının növbəti böyük humanist addımı kimi dəyərləndirib: “Əfv sərəncamının verilməsi cənab Prezidentin səlahiyyətlərinə daxil olan məsələdir. Bu dəfə də dövlətimizin başçısı böyük humanist addım atdı. Məhkum olunmuş insanlar ailələrinə, qohumlarına, dost və tanışlarına qovuşdular. Prezident İlham Əliyev həmin ailələrin Novruz bayramı sevincinə əlavə sevinc qatdı, onlara xoş əhval-ruhiyyə bəxş etdi. Dünyada insanlara sevinc bəxş etməkdən daha gözəl nə ola bilər ki?”

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb.

## Veteranlar Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamının yüzlərlə ailəyə bəxş etdiyi sevincə qoşulur

***Azərbaycan Prezidenti İlham Əliyevin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması” haqqında imzaladığı sərəncam humanizmin bariz göstəricisidir.***



Bu sözləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib.

C.Xəlilov bildirib ki, Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə martın 16-da imzaladığı əfv sərəncamı 431 nəfərə şamil edilib, onlardan 399-u azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad olunub. Eyni zamanda, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası müddətli azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib: “Sərəncam Cinayət Məcəlləsinin demək olar ki, bütün maddələri üzrə məhkum olunan şəxsləri əhatə edib. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar dövlətimizin başçısının fəaliyyətinin ədalət, humanizm və mərhəmət prinsiplərinə əsaslandığının təzahürüdür”.

Təşkilatın sədr müavini deyib ki, sərəncam Azərbaycanın hüquqi demokratik və humanist dəyərlərə sadiq dövlət olduğunu təsdiqlədi: “Respublika Veteranlar Təşkilatı Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirir. Respublika veteranları imzalanan əfv sərəncamını yüksək qiymətləndirir və inanır ki, əfv olunanlar Azərbaycan cəmiyyətinə layiqincə inteqrasiya olunacaq, dövlətimizin tərəqqisi naminə əllərindən gələni əsirgəməyəcəklər”.

Əfv sərəncamı ümumilikdə 431 nəfərə şamil olunub. Onlardan azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Əfv sərəncamı, o cümlədən, 14 xarici vətəndaşa şamil olunub.



## Əfv sərəncamı 1 saylı Bakı İstintaq Təcridxanasında da icra olunub



**Əfv sərəncamı Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasında da icra olunub. Trend-in məlumatına görə, 1 saylı Bakı İstintaq Təcridxanasında cəza çəkən 6 məhbus azadlığa buraxılıb.**

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə 431 nəfər əfv edilib.

Əfv sərəncamı şamil edilənlərdən 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir nəfərin cəzası 25 il, 2 nəfərin cəzası isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib.

Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər də cəzadan azad olunub.

Bunda başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər, islah işləri cəzasına məhkum edilmiş 3 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.

1 nəfər ictimai işlər cəzası, 12 nəfər isə cərimə cəzasından azad edilib.

## *Oğlu azadlığa çıxan ata:* Bu gün bizim üçün böyük bayramdır

**Bu gün bizim üçün böyük bayramdır, sevincimizin həddi-hüdudu yoxdur. Bizə bu sevinci bəxş etdiyi üçün ailəm, qohumlarım adından cənab Prezident İlham Əliyevə təşəkkür edirəm.**



Trend-in məlumatına görə, bunu 1978-ci il təvəllüdlü, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2009-cu il 7 sentyabr tarixli hökmü ilə məhkum edilmiş Çərkəzov Pərvizin atası deyib: “Oğlum 12 il azadlıqdan məhrum edilmişdi, cəzasının 10 ilini çəkib, 2 ilindən azad olundu. Dəfələrlə belə sərəncamlar olub, nə qədər insan sevinib. Bu gün bizim üçün böyük bayramdır, sevincimizin həddi-hüdudu yoxdur. Bizə bu sevinci bəxş etdiyi üçün ailəm, qohumlarım adından cənab Prezident İlham Əliyevə təşəkkür edirəm”.

## Prezident İlham Əliyev mənə bir dünya sevinc bəxş etdi

***Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə cəzasının çəkilməmiş hissəsindən azad olunan 1975-ci il təvəllüdlü Azərbaycan vətəndaşı Ceyhun Məmmədov deyib ki, Prezident İlham Əliyev mənə bir dünya sevinc bəxş etdi.***



Qəsdən adam öldürməyə cəhddə təqsirləndirilərək 7 il 10 ay müddətinə azadlıqdan məhrum edildiyini bildirən Ceyhun Məmmədov deyib: “Cəzamın 4 il 6 ayını çəkmişdim, 3 il 4 ayı qalmışdı. Cənab Prezidentə minnətdaram ki, səhvimi bağışladı və məni azadlığa qovuşdurdu. Sevincimin həddi-hüdudu yoxdur. Bu mənə həm də bayram hədiyyəsi oldu. Bu bayramı ailəmlə qeyd etmək mənim üçün bir dünya sevinc deməkdir. Xalqıma, dövlətimə həmişə layiqli vətəndaş olacağam”.

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb.



# Əfv sərəncamı məhkum edilmiş Azərbaycan vətəndaşlarının böyük bir qrupuna şamil olundu

## Əfv olunanlar etimadı doğrultmalıdırlar



**Prezident İlham Əliyev növbəti əfv sərəncamını imzalamaqla Novruz bayramı ərəfəsində yüzlərlə ailəyə böyük sevinc, ikiqat bayram əhval-ruhiyyəsi bəxş etdi. Dövlətimizin başçısı bu xeyirxahlığı ilə humanizm və ədalət prinsiplərinə sədaqət nümunəsi göstərdi. Ölkəmizin həyatında çox mühüm hadisə olan budəfəki əfv sərəncamı 431 məhbusu əhatə edir. Bu sərəncam ölkə Prezidentinin Azərbaycanda vətəndaş həmrəyliyini, humanizmi, insanlara göstərdiyi qayğını daim diqqətdə saxladığının bariz nümunəsidir. Bu xeyirxah missiyanın bir tərbiyəvi əhəmiyyəti də ondan ibarətdir ki, kim öz cinayət əməlini dərk edirsə, peşmançılıq hissi keçirirsə, bağışlanır.**

Demokratik dəyərlərin başlıca meyarlarından biri olan insan hüquq və azadlıqlarının təmin olunması və müdafiəsinin əsası ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi vaxtdan qoyulub. Məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyulmuşdur. Həmin vaxtdan başlayaraq, respublikamızda humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmləndirilməsinə hər zaman həssaslıqla yanaşılıb. Bu baxımdan, 1993-cü ildən ölüm hökmü cəzası üzərində moratorium qoyulmasını, 1998-ci ildə isə bu cəzanın tamamilə ləğv edilməsini xüsusi qeyd etmək lazımdır.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsində Heydər Əliyev tərəfindən həyata keçirilən uğurlu tədbirlər onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Dövlətimizin başçısı bununla əlaqədar bir neçə dövlət proqramını təsdiqləmiş və bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyi daha da artmışdır.

Prezident İlham Əliyevin 2006-cı il 28 dekabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na müvafiq olaraq, BMT-nin "Minilliyin inkişaf məqsədləri"nin təbliği və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət qurumları tərəfindən BMT-nin İnsan Hüquqları Şurası ilə əməkdaşlıq əlaqələri yaradılmışdır. Dövlət başçısının təsdiqlədiyi "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" bu sahədə qarşıya çox ciddi vəzifələr qoymuşdur.

Bu əhəmiyyətli sənəddə bildirilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində müəyyən edilmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu məqsədə nail olmaq üçün ölkəmizdə qəbul edilən qanunların ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında və müstəqil dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsi zəruridir. Ölkə başçısının prezidentlik fəaliyyəti dövründə hər il dövlət bayramları ərəfəsində əfv sərəncamı imzalamaqla yüzlərlə məhbusu azadlığa qovuşdurması artıq ənənə halını alıb. Prezident İlham Əliyevin son 16 ildə 34 əfv sərəncamın imzalaması humanizm və ədalət prinsipinə sadiqliyin bariz nümunəsidir.

Dövlət başçısının bu günlərdə imzaladığı, ümumilikdə sayca 65- ci olan əfv sərəncamı 431 məhkuma şamil olundu. Onların sırasında beynəlxalq qurumların diqqətində olan məhkumların da olması dövlət başçısının siyasi mövqeyindən asılı olmayaraq, hər kəsə eyni münasibət bəsləməsinin nəticəsidir. Əslində, bu sərəncan minlərlə ailəyə ikiqat bayram sevinci bəxş etdi. Bu humanist addmın xoş sədaları artıq nüfuzlu beynəlxalq qurumlardan, inkişaf etmiş demokratik ölkələrdən eşidilməkdədir.

Ulu öndər Heydər Əliyevin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək Heydər Əliye Fondunun da başlıca məramlarından biridir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən amnistiya aktları humanizm ənənələrinin davamının əyani təcəssümüdür.

Azərbaycan Prezidentinin əfv sərəncamları respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir. Bu sərəncamlarla əfv olunanlar isə dövlətin onlara etimadını doğrultmalı, azadlığın qədri bilinməli, layiqli vətəndaş kimi cəmiyyət həyatına öz töhfələrini verməlidirlər.

***Mehdi ABDULLAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının humanitar və sosial məsələlər üzrə prorektoru, hüquq üzrə elmlər doktoru***

## Daha bir humanizm aktı

❒ ***Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə növbəti əfv sərəncamını imzalamaqla yüzlərlə ailəyə, minlərlə insana sevinc bəxş etdi. Bu, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu müddətdə imzaladığı 34-cü, ümumiyyətlə isə, ölkədə 65-ci əfv sərəncamıdır. Bu vaxta qədər imzalanmış əfv sərəncamları ümumilikdə 8 minə yaxın insanı əhatə edib. Onların mütləq əksəriyyəti azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad olunub.***



Yaxşı xatırlayırıq ki, keçən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzalanmış sərəncam 634 nəfərə şamil edilmişdi. Builki əfv siyahısına isə 431 nəfər salınıb və onlardan 399-u azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad olunub. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası isə müddətli azadlıqdan məhrumetmə ilə əvəz edilib.

Builki sərəncamla 52 nəfər hüquq-müdafiə təşkilatlarının müraciətləri əsasında əfv siyahısına salınıb. Bu, Azərbaycan Prezidentinin ölkənin bütün vətəndaşlarına humanizm və mərhəmət prinsipləri əsasında yanaşmasının bariz nümunəsidir.

Bütövlükdə, əfv sərəncamları məhkumların şəxsiyyəti, həbsdə olduqları müddətdə davranışları, ailə vəziyyəti, səhhəti və s. amillər nəzərə alınaraq hazırlanır. Bu da düzgün qərarların qəbul olunması üçün vacib cəhətlərdən biridir. Görünür ki, bütün müraciətlər əfv komissiyasında diqqətlə və obyektiv qaydada araşdırılıb. Siyahıya baxsaq, azad edilmiş şəxslərin cəmiyyətin müxtəlif təbəqələrinə aid olduğunu görərik. Bu da humanizmin, mərhəmətin təzahürüdür və onu göstərir ki, Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır, onun qayğı və ehtiyaclarına diqqət yetirir.

İndi qalır sərəncamla əfv edilmiş şəxslərin dövlət başçısının Novruz bayramı münasibətilə verdiyi imkandan doğru-dürüst istifadə etməsi. Yəni onlar çalışmalıdırlar ki, azadlığın qədrini bilsinlər, bir daha cinayət törətməsinlər.

***Kamran RAMAZANLI,***
***QHT rəhbəri***

## "Azadlıqdan şirin nemət yoxdur dünyada"

### Bunu əfv olunan məhbusların bir çoxundan eşitdik

**Əksər dünya dövlətlərindən fərqli olaraq Azərbaycan Respublikasının məhkum edilmiş şəxslərin sosial, ailə, davranış vəziyyətinin qiymətləndirilməsi və humanizm meyarlarından çıxış edilərək onların işinə baxılması, cəzalarının yüngülləşdirilməsi və yaxud da əfv edilməsi ilə bağlı xüsusi siyasəti var. Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqətlə yanaşan Azərbaycan dövləti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşmışdır. Məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyulmuşdur.**

Heydər Əliyev bütün dövrlərdə humanizm məfkurəsindən çıxış edərək, mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri öz fəaliyyətində rəhbər tutmuşdur. Ulu öndərin humanizm ideyalarına böyük önəm verməsi və real həyatda bunu təcəssüm etdirən addımlar atması vətəndaş həmrəyliyinə xidmət etməklə yanaşı, insanların hakimiyyətə olan etimadını daha da artırmışdır. Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində əfv və amnistiya təsisatları yaradılmış, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanmışdır. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilmiş, bunlardan 21325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur.

Ulu öndər tərəfindən imzalanan əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilmişdir. Heydər Əliyev böyük humanistlik nümayiş etdirərək imzaladığı əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismini bağışlamışdır.

Məhz Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılmış və Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşmüşdür. Xatırladaq ki, cəmi bir il hakimiyyətdə olmalarına baxmayaraq, AXC-Müsavat iqtidarı neçə nəfərə ölüm cəzası hökm çıxarılmış və icra edilmişdir.

Son 16 ildə ümummilli liderin Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən konsepsiyalarının uğurla həyata keçirilməsinin nəticəsi olaraq respublikamız bütün sahələrdə böyük tərəqqiyə nail olmuş, dünya birliyində öz yerini möhkəmləndirmişdir. Eyni zamanda, ulu öndərin humanizm siyasəti ənənələrinə sadiqlik Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib. Ulu öndərin əsasını qoyduğu humanizm siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib, cinayət törətmiş şəxslərin mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bağışlanması ənənəsini yaşadıb, inkişaf etdirib. Törətdiyi cinayət əməlindən peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bağlı müraciətlərini nəzərə alan dövlət başçısı bu dəfə də cəmiyyətimizi sevindirdi. Belə ki, Prezident İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 16 mart 2019-cu il tarixli sərəncamı icra olundu.

Qeyd edilməlidir ki, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının dövlət başçısına ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların şəxsiyyətinin, səhhətinin, ailə vəziyyətinin, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq, humanizm prinsiplərinə əsaslanaraq 431 məhkum əfv olunub. Sərəncam əsasında azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.

Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25 il, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunan və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrum etmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1 nəfər cəzasının çəkilməmiş hissəsindən, 3 nəfər islah işləri cəzasından, habelə 1 nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib.

6 saylı cəzaçəkmə müəssisəsindən 49 nəfər, 1 saylı cəzaçəkmə müəssisəsindən 8 nəfər, 15 saylı cəzaçəkmə müəssisəsindən 4 nəfər, Penitensiar Xidmətin müalicə müəssisəsindən 3 nəfər, 7 saylı cəzaçəkmə müəssisəsindən isə 7 nəfər məhkum azadlığa buraxılıb.

Əfv sərəncamının martın 17-də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən necə icra edilməsini izləmək üçün media nümayəndələri ilə birgə bir neçə cəzaçəkmə müəssisəsində olduq.

Sərəncamın icrası Milli Məclisin deputatlarının, Ombudsman Aparatının, dövlət qurumlarının, ədliyyə nazirinin yanında fəaliyyət göstərən İctimai Komitənin, əfv komissiyası üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının, media nümayəndələrinin iştirakı ilə Penitensiar Xidmətin tabeliyindəki 1, 2, 4, 6, 9, 10, 11, 15, 16, 17, Bakı istintaq təcridxanası və digər cəzaçəkmə müəssisələrində həyata keçirildi. Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin məsul əməkdaşları məhkumların saxlanıldıqları cəzaçəkmə müəssisələrinə gələrək sərəncamın icrasını təmin etdilər.

Baş çəkdiyimiz 1, 6, 7 və 15 saylı cəzaçəkmə müəssisələrində müxtəlif taleli insanlarla söhbətləşsək də, onların hamısının gözlərində eyni həsrət və sevincdən axan göz yaşlarını görmək mümkün idi. Artıq həsrətə son qoyulurdu.

Novruz bayramı əsrlərdir, yeni təravət, yeni sevinclər, yeni arzular və yeni başlanğıclar gətirdiyi kimi, dövlət başçısının imzaladığı əfv sərəncamı da yüzlərlə ailəni sevindirərək, məhkumlara öz həyatlarını azad və xoşbəxt şəkildə qurmaq şansı verdi…

İlk olaraq, Penitensiar Xidmətin avtobusları ilə 6 saylı cəzaçəkmə müəssisəsinə yola düşdük. Bir qrup jurnalisti müşayiət edən Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri, polkovnik-leytenant Mehman Sadıqov və şöbənin digər əməkdaşları ilə yolboyu əfv sərəncamı ilə əlaqədar görülən işlərlə bağlı söhbət etdik, Azərbaycan dövlətinin bu cür əfv sərəncamları ilə cinayət törətmiş yüzlərlə vətəndaşına öz həyatını layiqli şəkildə yenidən qurmaq üçün şans verməsini hamımız təqdir etdik.

6 saylı cəzaçəkmə müəssisəsinin önündə qələbəlik idi. Uşaqlı-böyüklü hər kəsin həsrət dolu baxışları müəssisənin kiçik pəncərəsi olan qapısına dikilmişdi. Kimisi övladını, kimisi atasını, kimisə də yoldaşını gözləyirdi. Bir sözlə, Novruz bayramı ərəfəsində illərdir ki, yaxınlarına qovuşmaq ümidi ilə yaşayan insanların sevincinin həddi-hüdudu yox idi.

...Azadlığa çıxacaq məhkumlar digər dustaq yoldaşları ilə 6 saylı cəzaçəkmə müəssisəsinin zalına toplaşmışdılar. Zalda sükut hökm sürməsi anlaşılan idi. Bir çoxu həyəcanla müəssisədə keçirəcəyi son günün bitməsini, yeni azad həyata başlamasını gözləyirdi.

Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamının əhəmiyyətindən danışan Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəis müavini Məhərrəm Qafarov dövlət başçısının bu addımını yüksək dəyərləndirib. Bildirib ki, dövlətimiz hər zaman humanizm və ədalət prinsiplərini əsas tutur, bu əfv sərəncamı da cəzaçəkmə müəssisələrində olan vətəndaşlarımıza və onların ailələrinə göstərilən diqqətdən irəli gəlir. O, azadlığa çıxan məhkumlara bundan sonra cəmiyyətimizə faydalı işlərlə töhfə verməyi tövsiyə edib və Novruz bayramını öz ailələri ilə birgə keçirməyi arzulayıb.

Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı əfv sərəncamının Prezidentin səlahiyyətində olduğunu vurğulayaraq, bu rəsmi sənədin xüsusi əhəmiyyətini qeyd edib. Bildirib ki, sözügedən sənəd cəzaçəkmə müəssisələrində olan məhkum vətəndaşlarımıza azadlığa çıxaraq cəmiyyətə və dövlətə layiq vətəndaş olmaq üçün verilən şansdır.



Ədliyyə Nazirliyinin İctimai Komitəsinin üzvü Əhməd Abbasbəyli indiyə kimi bir çox məhkum vətəndaşlarımızın müxtəlif illərdə əfv sərəncamlarından yararlandığını xatırladaraq, dövlətin həmişə humanizm prinsiplərinə sadiq qaldığını vurğulayıb. Əfv komissiyasının üzvü Aynur Sofiyeva bildirdi ki, dövlətimiz hər zaman mərhəmət, insanpərvərlik məfkurəsinə əsaslanaraq cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini yaşadıb, inkişaf etdirib. Bunun nəticəsidir ki, bu il əfv sərəncamı 431 nəfərə şamil edilib və bu sevinc təkcə həmin vətəndaşları deyil, onların yaxınlarını, ailə üzvlərini də əhatə edir. Əfv sərəncamı bir qayda olaraq, cəzaçəkmə müəssisələrində nümunəvi davranışları ilə fərqlənən, həqiqətən islah olunmuş məhkumlara şamil edilir.

Çıxışlardan sonra məhkumlara azad olunmaları barədə sənədlər təqdim edildi və onlara bundan sonrakı həyatlarında cinayət və cəzadan uzaq olmaları arzulandı. Azad olunmaları barədə sənədlərini alan məhkumların həyəcan və sevinci onların simalarından oxunurdu.

***Cəzasının çəkilməmiş hissəsindən azad edilən Saleh Həsənov yüzlərlə insan kimi sərəncamın ona da şamil olunduğu üçün sevinirdi. O dedi:***

– Prezidentimiz bu humanist addımı ilə bizə daha bir şans verdi. Yenidən azad həyata başlamalı, cəmiyyətdə qaynayıb-qarışmalıyıq. Çalışacağıq ki, bu fürsətdən lazımınca istifadə edək və xalqımıza, dövlətimizə, Vətənimizə layiqli vətəndaş olaq. Bizim bu ayda azad olmağımızın xüsusi əhəmiyyəti var. Çünki bu ay doğmaların bir-biri ilə görüşməsi həm də savabdır. Prezident bizə bu imkanı yaşatdı. Allah ondan razı olsun.

1 saylı cəzaçəkmə müsəssisəsinin önündə də qələbəlik idi. Burada Mətləb Hüseynovun sevincinə şərik olduq. Qapıdan çıxan oğlu Aqil Hüseynov atasına və qardaşına sarıldı və sonra ətrafda digər məhkum yoldaşlarının yaxınlarını görüncə: "Allah bütün məhkumların qapısını açsın. Onlar da tezliklə yaxınlarına qovuşsunlar."– dedi. – Azadlıqda olmaqdan böyük sevinc nə ola bilər ki!"

Aqilin atası Mətləb Hüseynov da təəssüratını bizimlə bölüşdü: Bugünkü günü oğluma qovuşduğum üçün çox sevincliyəm. Prezident İlham Əliyevin əfv sərəncamı mənim kimi yüzlərlə atanı-ananı balasına qovuşdurdu. Bununla da bayram sevincimiz ikiqat artdı. Düzdür, gözləyirdim ki, balam nə vaxtsa çıxacaq. Amma belə tez təsəvvür etmirdim. Allah Prezidentimiz İlham Əliyevə, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya cansağlığı versin. Bu sərəncamla bir çoxları kimi mən də övladlarımla bayram süfrəsində Novruzu ürək açıqlığı ilə qeyd edəcəm".

Sonra digər insanlarla söhbət etdik.

**Aqil Nəsibov:** Üç il doqquz ay müddətinə həbs edilmişdim. Üç il dörd ayını tamamlamışam. Qalan 5 ayı isə Prezidentin sərəncamı ilə əfv edildim. Bu sərəncam mənim kimi yüzlərlə insanı və onların yaxınlarını sevindirdi. Prezidentə bu humanist addımına görə minnətdarıq. Adımın əfv sərəncamına düşməsinə görə sevinirəm.

**Feyzulla Feyzullayev:** Biz də bu sərəncamdan faydalanmışıq. Ona görə də cənab Prezidentimizə çox sağ olsun deyirəm. 2 il 8 ayım qalmışdı, əfv olundum. Ailəmə qovuşmağıma görə çox sevinirəm. Allah heç bir insana məhbus həyata yaşatmasın.

**Xalid Kazımov:** Mənim də 1 il 5 ay cəza müddətim qalmışdı. Lakin indi əfv olundum və azadlıqdayam. Feyzulla qardaşımın fikirlərinə qatılaraq bildirirəm ki, məhkumluq çox ağır bir həyatdır. Dünyada azadlıqdan şirin nemət yoxdur. Biz buna görə Prezidentimizə təşəkkür edirik.

**Əfvə düşmüş Seymur Feyzullayevin anası:** Oğlumun azadlığa buraxılmasına görə dövlət başçısına minnətdarlığımı bildirirəm. Çox sevincliyəm. Allah Prezidentin ailəsini, övladlarını qorusun. Artıq neçə il idi ki, balamı görmürdüm. İndi isə onu bağrıma basa bilirəm, bayramı bir yerdə onunla keçirəcəm.

**Kamal Əliyev:** Çox sağ olsun, dövlət başçımız ki, mənim qarşıdakı cəza illərimi bağışladı. Çox sevinirəm ki, ailəmlə, dostlarımla görüşə biləcəm. Digər məhbus dostlarımıza da bu sevinci yaşamağı arzu edirəm. Allah hər kəsin qapısını açsın.

**Məlahət Bağırova:** Oğlum 11 il, üç ay həbs cəzası almışdı. Onun çıxmağına 2 il üç ay qalırdı. Ana kimi bu müddətdə onun yollarını gözləmişəm. Dualar etmişəm. Nəhayət ki, bu gün gəlib çatdı. Oğlum zəng etdi, azadlığa çıxacağını dedi. Sevincimin həddi-hüdudu yoxdur. Bu gözəl bayram günündə Prezidentimiz bizə böyük hədiyyə bəxş etdi.Ona dönə-dönə təşəkkür edirəm.

***

Artıq vaxtdır, baş çəkdiyimiz cəzaçəkmə müəssisələrini elə əfv edilmiş məhkumlarla birgə tərk edirik. Azadlığın havasını ciyərlərinə çəkən və qapıya doğru gedən məhkumlardan biri dəmir çərçivəli pəncərələrə tərəf baxıb bir-bir yoldaşlarını çağırır.

Yellənən əllər yoldaşlarını azad həyata doğru yola salır və əfv edilmiş cavan oğlan məhbusluğun son dəqiqələrində tərk etdiyi dostlarına deyir: " Haqqınızı halal edin. Bir gün inşallah sizin də qapılarınız açılar."

***Əfsanə BAYRAMQIZI,***
***Anar TURAN,***
***"Xalq qəzeti"***

# Kolumbiya Universitetinin professoruna ADA Universitetinin fəxri doktoru adı verilib

***ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, professor, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saks ADA Universitetinin fəxri doktoru seçilib.***




ADA Universitetindən bildirilib ki, rektor Hafiz Paşayev elmi şuranın qərarına əsasən ictimai siyasət və iqtisadiyyat elminə əhəmiyyətli töhfələrinə görə fəxri doktor diplomunu və universitetin xatirə medalını qonağa təqdim edib. Rektor amerikalı alimlə ABŞ-da Azərbaycanın səfiri qismində görüşlərini, o cümlədən 2004-cü ildə professor C.Saksın moderatorluğu ilə Kolumbiya Universitetində Prezident İlham Əliyevin yerli ictimaiyyətin böyük marağını cəlb edən çıxışını xatırladıb.

Verilən fəxri ada görə ADA Universitetindəki həmkarlarına minnətdarlığını bildirən C.Saks mərasimdə qlobal dayanıqlı inkişaf mövzusunda məruzə ilə çıxış edib. Vurğulayıb ki, bəşəriyyətin qarşısında duran müxtəlif təhdidləri nəzərə alaraq, dünya ölkələri dayanıqlı inkişafı hədəfləməlidirlər. Ətraf mühitə dağıdıcı təsirini göstərən müasir ekstensiv iqtisadiyyatların təsirini təkcə istehsalçı deyil, istehlakçı da anlamalı və məntiqli yanaşmanı bir qaydaya çevirməlidir. Xüsusilə enerji sahəsində alternativ resurslara müraciətin qaçılmazlığını bildirən alim, bölgə dövlətlərini qlobal çağırışlara birgə əməkdaşlıqla cavab verməyi tövsiyə edib. Azərbaycanın yerləşdiyi regionda mövcud münaqişələrin dərhal həlli zərurətindən danışan professor C.Saks bildirib ki, münaqişələrin həlli və regionun gələcəyi üçün daha sıx iqtisadi əməkdaşlığın yaradılması vacibdir. Həmçinin nəqliyyat infrastrukturu inkişaf etdirilməli, milli iqtisadiyyatlar fövqəlnüfuzlardan asılı olmayan şəkildə, öz qüvvələri hesabına dayanıqlı qurulmalıdır.

Tədbir ADA Universitetinin tələbə və professor heyətinin sual-cavab sessiyası ilə davam etdirilib.

Qeyd edək ki, professor C.Saksın adı ABŞ-ın "Time" jurnalı tərəfindən dünyanın 100 ən nüfuzlu liderləri siyahısında yer alır.

***AZƏRTAC***



# Rusiyanın Dərbənd və Maqas şəhərlərinin nümayəndə heyətləri Bakıya Novruz şənliklərinə gəlmişlər

***Paytaxtda təşkil olunan möhtəşəm Novuz bayramı şənliklərində iştirak etmək üçün Rusiya Federasıyası Dərbənd şəhər dairəsinin başçısı Hizri Abakarovun və Maqas şəhərinin meri Beslan Tceçoyevin rəhbərliyi ilə nümayəndə heyətləri Bakıya gəlmişlər.***

Dağıstan Respublikasının Dərbənd və İnquşetiya Respublikasının Maqas şəhərlərini təmsil edən nümayəndə heyətləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, ulu öndərin məzarı önünə gül dəstələri qoymuşar. Onlar akademik Zərifə Əliyevanın və görkəmli dövlət xadimi Əziz Əliyevin də xatirələrini yad etmişlər.

Qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların məzarları üzərinə gül dəstələri qoymuşlar. Buradan Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətlərinə Şəhidlər xiyabanının tarixi, Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir. Səfərin ilk günündə qonaqlar tarixlər şahidi İçərişəhərdə olmuş, qədim qalanın nadir abidələri ilə tanış olmuş, Heydər məscidini ziyarət etmişlər.

Bakı Şəhər İcra Hakimiyyətində keçirilən görüşdə şimaldan gəlmiş dostlarımızı salamlayan RİH başçısı Eldar Əzizov xalqlarımız arasında qədim və mehriban qonşuluq münasibətlərinin müstəqillik illərində yeni forma və məzmunla zənginləşdiyini xatırladaraq ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarımızın dostluq və və sıx əlaqələrinin müstəsna önəmini vurğulamışdır. Azərbaycan--Rusiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edən şəhər rəhbəri bu əlaqələrin inkişafında Şimali Qafqaz respublikalarının xüsusi rol oynadığını bildirmişdir: "Yüksək səviyyəli siyasi münasibətlər iqtisadi, sosial və mədəni əlaqələrə də öz təsirini göstərməkdədir. Belə qarşılıqlı səfərlər isə əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açır".

Azərbaycan ilə Şimalı Qafqaz xalqlarının xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq şəraitində yaşadıqlarını söyləyən Hizri Abakarov ölkəsində Azərbaycan ilə münasibətlərə xüsusi önəm verildiyini vurğulamışdır. Beslan Tceçoyev isə səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirmiş, bu səfərin hər iki şəhərlə Azərbaycanın əlaqələrinin möhkəmlənməsinə kömək edəcəyini qeyd etmişdir. Hər iki nümayəndə heyətinin rəhbərləri Bakı şəhərinin gözəlliyinə valeh olduqlarını, burada aparılan geniş abadlıq və quruculuq işlərini yüksək qiymətləndirdiklərini bildirmişlər.

***T. AYDINOĞLU, "Xalq qəzeti"***

# "UNEC-də təhsilin elmə inteqrasiyası istiqamətində mütərəqqi islahatlar aparılır"

***UNEC-in "Professorlar Klubu"nun növbəti görüşü keçirilib.Görüşün fəxri qonağı AMEA-nın həqiqi üzvü, UNESCO-nun Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun müxbir üzvü, professor Şahin Mustafayev olub.***



"Professorlar Klubu"nun rəyasət heyətinin sədri, Maliyyə və maliyyə institutları kafedrasının müdiri, Əməkdar müəllim, professor Əvəz Ələkbərov klubda mütəmadi olaraq ölkənin tanınmış alim və ictimai xadimləri ilə görüşlərin keçirildiyini, cəmiyyətin aktual mövzuları barədə fikir mübadiləsi aparıldığını diqqətə çatdırıb.

Ə.Ələkbərov UNEC-də son illərdə həyata keçirilən yeniliklərdən də danışıb. UNEC-in tədqiqatyönümlü ali təhsil müəssisəsinə çevrilmək istiqamətində qarşısına qoyduğu hədəflərdən söz açan professor, universitetdə Nobel mükafatçılarının iştirakı ilə nüfuzlu beynəlxalq konfransların keçirildiyini, pedaqoji heyətin elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə differensial əməkhaqqı sisteminin tətbiq edildiyini vurğulayıb. Professor son 4 ildə UNEC-in pedaqoji heyətinin nüfuzlu beynəlxalq elmi bazalara daxil olan jurnallarda dərc olunan məqalələrinin sayının ötən illərə nisbətən 4 dəfədən çox artdığını, beynəlxalq əlaqələrinin daha da genişləndiyini bildirib.

UNEC-də təhsilin elmə inteqrasiyası istiqamətində mütərəqqi islahatların aparıldığını deyən akademik Şahin Mustafayev universitetin mütəmadi olaraq beynəlxalq reytinqlərdə mövqeyini yüksəltməsini qürurla izlədiyini bildirib. Akademik UNEC-də yüksək elmi mühitin yaradıldığına diqqət çəkərək, bu ali təhsil müəssisəsinin aparıcı islahatların önündə olacağına əminliyini ifadə edib.

Novruz süfrəsi ətrafında təşkil olunan səmimi görüş müzakirələrlə davam edib.

***Elnarə ÖMƏROVA***



# Latviya Azərbaycanla əməkdaşlıqda MARAQLIDIR

**Latviya Azərbaycanla yerüstü nəqliyyat əlaqələri üzrə əməkdaşlıqda maraqlıdır. Bunu Trendə eksklüziv müsahibəsində Latviyanın xarici işlər naziri Edqar Rinkeviç deyib.**

Edqar Rinkeviç bildirib ki, tranzit Latviya iqtisadiyyatının vacib hissəsidir: "Bu sahə bizim ümumi daxili məhsulun 3 faizini təşkil edir. Bu sektorun vacibliyini qəbul etməklə, Latviya öz imkanlarının genişlənməsi və tərəfdaşlarına daha keyfiyyətli xidmətlər göstərmək üzərində daim işləyir. Nəqliyyat şəbəkəsinin və infrastrukturun təkmilləşməsi həm də Avropa İttifaqının "Şərq tərəfdaşlığı" siyasətinin prioritetidir".

Nazir qeyd edib ki, Latviya Asiya, Mərkəzi Asiya, Qara dəniz ölkələri və Şimali Avropa arasında Azərbaycanla yerüstü nəqliyyat əlaqələri üzrə əməkdaşlıqda maraqlıdır: "Azərbaycan ərazisindən iki vacib beynəlxalq nəqliyyat dəhlizi keçir: Baltik dənizinə çıxışı olan Şimal-Cənub beynəlxalq dəhlizi və Xəzər dənizi ilə Qara dəniz arasında strateji əlaqə yaradan və Yeni İpək yolunun hissəsi olan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRACECA)".

Rinkeviç bildirib ki, Azərbaycan Avrasiyada yeni nəqliyyat marşrutlarının inkişafında Latviyanın vacib tərəfdaşıdır: "Latviya və Azərbaycanın dəmir yolu və liman infrastrukturunda ümumi maraqları var və hər iki ölkə bu əməkdaşlıqdan qazanacaq".





# Yeni Zelandiya silah dövriyyəsi haqqında qanunu sərtləşdirir

**Yeni Zelandiyanın Nazirlər Kabineti ölkədə silah dövriyyəsinin nizamlanmasını nəzərdə tutan qanunvericiliyə yenidən baxılması barədə qərar qəbul edib.**

Bunu Yeni Zelandiyanın Baş naziri Casinda Ardern bəyan edib. O bildirib ki, qərar qanunun sərtləşdirilməsi ilə bağlıdır: "Müvafiq qərar Nazirlər Kabineti tərəfindən qəbul olunub, 10 gündən sonra dərc ediləcək".

C.Ardern vurğulayıb ki, Yeni Zelandiyanın Kraystçörç şəhərindəki terror aktından sonra bu addımın atılması zərurətə çevrildi.

Xatırladaq ki, martın 15-də Kraystçerçdə iki məsciddə insanlar atəşə tutulub. Hadisə nəticəsində 50 nəfər ölüb, 50 nəfər xəsarət alıb.

# Multikulturalizm Mərkəzində Novruz bayramına həsr olunan tədbir

***Martın 18-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Novruz bayramına həsr olunan tədbir keçirilib.***



BBMM-in icraçı direktoru Rəvan Həsənov Azərbaycan xalqının qədim bayramlarından olan Novruzun xalqları, müxtəlif dinlərin, irqlərin nümayəndələrini bir-birinə daha da yaxınlaşdırdığını deyib. Bildirib ki, Novruz bayramı 2009-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. 2010-cu ildən isə BMT Baş Assambleyasının qərarı ilə hər il 21 mart Dünya Novruz Günü kimi qeyd olunur.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin aparıcı məsləhətçisi Anar Əlizadə deyib ki, Novruz bayramı baharın, yeni həyatın rəmzidir. Bu bayram həm də, demək olar ki, multikulturalizmin simvoludur. Çünki Novruz bayramı Zərdüştlükdən qalan bayram olsa da, zaman keçdikcə Azərbaycanda yaşayan müxtəlif xalqlara, mədəniyyətlərə təsir göstərib və özünəməxsusluq qazanıb. Sovet dövründə xalqımız bu bayramın keçirilməsi ilə bağlı müəyyən məhdudiyyətlərlə üzləşirdi. Lakin müstəqilliyimizin bərpasından sonra xalqımız bu bayramı azad şəkildə, rahat qeyd edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Avropa Yəhudiləri Dini İcmasının rəhbəri Aleksandr Şarovski, "Ronahi" Kürd Mədəniyyət Mərkəzinin rəhbəri Fəxrəddin Paşayev, Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, AMEA Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu, Avar Azərbaycan İctimai Birliyinin təmsilçisi Məhəmməd Nooyev və digərləri Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərək xoş arzularını çatdırıblar. Bildirilib ki, Novruz bayramı həmrəylik, dostluq, qardaşlıq bayramıdır. Azərbaycanda müxtəlif xalqlar və fərqli dinlərə etiqad edənlər hər zaman mehribanlıq şəraitində birgə yaşayıblar.

***AZƏRTAC***



# İran Türkiyə ilə birgə PKK-ya qarşı əməliyyat keçirəcəyini təsdiqləyib

***İranın xarici işlər nazirinin müavini Məhəmməd Hüseyn Zülfüqar bildirib ki, İran və Türkiyə PKK terrorçularına qarşı birgə hərbi əməliyyat keçirəcəklər.***

Nazir müavini PKK-nın hər bir ölkə üçün təhdid olduğunu vurğulayıb. O əlavə edib ki, İran-Türkiyə sərhədində heç bir problem yoxdur.

Xatırladaq ki, martın 6-da Türkiyənin daxili işlər naziri Süleyman Soylu Türkiyə və İranın PKK terror təşkilatına qarşı birgə hərbi əməliyyat keçirəcəyini bəyan etmişdi.

# Terrorçu Baş nazirin ofisinə elektron məktub göndərib




**Yeni Zelandiyada kütləvi qətl törətməkdə şübhəli bilinən şəxs Baş nazirin ofisinə elektron məktub göndərib.**

AZƏRTAC xəbər verir ki, baş nazir Casinda Ardernin ofisinin yaydığı məlumata görə, martın 15-də elektron poçta Kraystçerç şəhərində kütləvi qətllər törətməkdə şübhəli bilinən şəxsdən onun manifestinin surəti daxil olub. Daha 70-ə yaxın insanın belə məktub aldığı bildirilir. Bundan əlavə, həmin məktub şübhəli tərəfindən "Twitter" sosial şəbəkəsinə də yerləşdirilib.

Xatırladaq ki, Yeni Zelandiya məhkəməsi Avstraliya vətəndaşı Brenton Tarranta qarşı Kraystçörç şəhərinin iki məscidində 50 nəfərin qətlə yetirilməsi ilə bağlı ittiham irəli sürüb. Sənəddə deyilir ki, şübhəli hücumun hazırlanmasına iki il vaxt sərf edib. Burada miqrantların ağ cəmiyyəti doldurmasından şikayət öz əksini tapıb.

Baş nazirin ofisinin bildirdiyinə görə, həmin sənəd parlamentin sədrinə, digər siyasi xadimlərə və kütləvi informasiya vasitələrinə göndərilib. Həmçinin qeyd edilir ki, elektron məktubda hücum barədə heç bir xəbərdarlıq yoxdur.

**İranın şimalında yerləşən Gilan vilayətinin Sari şəhərinin Meləl (Millətlər) parkı Təcən çayının daşması nəticəsində su altında qalıb.Bunu İranın Gilan vilayəti Sari rayonu meri Mehdi Oburi deyib. O parkın kənarında su altında avtomobillərin qaldığını və onların çıxarılması üçün əməliyyatların aparıldığını bildirib.**



# İranda Təcən çayı daşıb

Merin sözlərinə görə, daşqınlar nəticəsində şəhərin infrastrukturuna ciddi ziyan dəyib.

Təcən çayının kənarında, 35 hektar ərazidə yerləşən park bütün ölkələrin bayraqları asıldığına görə Meləl parkı adlanır.

19 mart 2019-cu il, çərşənbə axşamı XALQ QƏZETİ

# Cəbhə bölgəsində bayram tonqalları

**Dağlardan hərdən soyuq küləklər əssə də, yamaclarda zərif tülə bənzər duman sürünsə də torpaq isinir, cana gəlir, elə bil ki, qoynunda addımladığı insanları salamlayır, "Yurdumuza bahar gəlib" deyir. Külli Qarabağ yenə qənirsiz gözəlliklərə bürünüb – minbir rəngə çalan gül- çiçəkləri, sarı-çəhrayı rənglərlə dil açan meşələri, coşub-çağlayan bahar suları, dağlara-düzlərə yaşıl xalı sərən ilmələri ilə… İlin bu çağında – Novruz bayramı günlərində yolumuzu yenidən cəbhə bölgəsinə saldıq, bu rayonlarda yaşayan, çalışan insanlarla görüşdük, söhbət etdik, gün-güzəranları, arzu və istəkləri ilə maraqlandıq.**

### FÜZULİ

Yastı təpələrin arası ilə uzanan rahat asfalt yol Şükürbəyli kəndinə gedir. Hələ rayon icra hakimiyyətində olarkən bizə demişdilər ki, müharibədən ən çox ziyan çəkən yaşayış məntəqələrindən biri də Şükürbəylidir. Cəmi bir neçə ay düşmən caynağında qalsa da, namərd və vəhşi erməni xisləti burda da özünü göstərmişdir. Kəndin, demək olar ki, bütün evləri yandırılmış,




yollar-körpülər dağıdılmış, yaşıllıqlar məhv edilmişdir. Yalnız 1994-cü ilin yanvar ayından – Azərbaycan silahlı qüvvələrinin uğurlu "Horadiz əməliyyatı"ndan sonra digər yaşayış məntəqələri kimi Şükürbəyli kəndi də düşmən caynağından azad olundu.

Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamlar bərpa və quruculuq işlərinə geniş meydan açdı. Bakıda, Sumqayıtda, Sabirabadda və başqa yerlərdə müvəqqəti məskunlaşmış kənd sakinləri tədricən öz ev-eşiklərinə qayıtdılar. Onlar quruculuqla, əkin-biçinlə məşğul oldular. Düzdür, bərpa işləri hələ də tam başa çatmayıb, ara-sıra yandırılmış, dağıdılmış evlərə rast gəlmək olur. Bununla yanaşı, Şükürbəylidə həyat öz əvvəlki ahəngi ilə davam edir.

Yenidən tikilmiş, yaxud əsaslı şəkildə bərpa edilmiş evlərdə yerli sakinlər yaşayırlar. Onlar həyət-bacalarında, pay torpaqlarında əkinçiliklə, heyvandarlıqla, baramaçılıqla məşğul olur, illik azuqələrini toplayır, artığını isə bazara çıxarırlar. Kəndin ortasındakı geniş meydan adamla doludur. Onlar böyük tonqalın ətrafında toplaşıblar. Çal-çağır, musiqi sədaları ətrafı bürümüşdür. Deyən-gülən, zarafat edən kim, fişəng atan, mahnı oxuyan kim… Bir sözlə, əsl bahar bayramı, Novruz ovqatı.

Biz də tonqal başına gəldik:

– Axşamınız xeyir. Novruz bayramınız mübarək.

– Xoş gəldiniz. Biz də sizi təbrik edirik.

Yəqin, soruşmaq istəyirsiniz ki, düşmənin, necə deyərlər, iki addımlığında, tonqal başında bu qədər adamın toplaşması təhlükəli deyil ki? Qətiyyən narahat olmayın. Qoy bu da düşmənlərimizə bir dərs olsun. Nəhayət, anlasınlar ki, bizim ocağımızı söndürmək, ağaclarımızı kəsmək, evimizi yandırmaq mümkün deyil. Özü də belə ocaqları tezliklə Şuşada, Xankəndinə, Laçında da... yandıracağıq – Füzuli Rayon İcra Hakimiyyəti başçısının Şükürbəyli kəndi üzrə nümayəndəsi Ədalət Həsənov böyük inamla, bir qədər də əsəbiliklə danışır. Onun səsindəki bu mübarizlik tonqal başında toplaşanları da, sanki, hərəkətə gətirdi. "Ura, ura… o günə az qalıb, yaşasın Azərbaycan əsgəri" – yerbəyerdən nidalar ucaldı.

Biz tonqal başında kəndin qocaman sakinlərindən olan Cahangir Babaşovla da tanış olduq. Ağır döyüş əməliyyatlarını, köçkünlük illərini yada salmaq çətin olsa da o, susa bilmir:

– Sizi inandırıram ki, Qarabağ hadisələri başlananda ulu öndər Heydər Əliyev hakimiyyət başında olsaydı nə torpaqlarımız işğal olunardı, nə də bu qədər itkilərimiz olardı. Ölkənin o vaxtkı rəhbərliyinin aciz, qorxaq mövqeyi, vahid ordunun və komandanlığın olmaması bizi gətirib bu günlərə qoydu. Axı biz ermənilərin qeyrətinə, gücünə yaxşı bələdik. Nə isə… Olan oldu. İndi gərək heç olmasa bundan sonra olub-keçənlərdən bir nəticə çıxardaq, çəkici bir yerə vuraq, düz yolla gedək. Dediyim odur ki, hər kəs əlindən gələni əsirgəməməli, gücü çatdığı qədər ölkə rəhbərliyinə kömək etməli, sinəsini qabağa verməlidir.

Öyrəndik ki, son illər Şükürbəyli kəndində sakinləri narahat edən bütün sosial məsələlər uğurla həll edilmiş, kəndə rahat asfalt yol çəkilmişdir. Orta məktəb, uşaq bağçası, tibb məntəqəsi fəaliyyət göstərir. Hazırda burada 1200 nəfər yaşayır. 40 ev tamamilə dağıdıldığından yeni evlərin



tikintisi və bərpası bir qədər gecikir. Başqa ünvanlarda yaşayan həmin evlərin sakinləri inanırlar ki, tezliklə onlar da öz doğma ev-eşiklərinə köçəcəklər.

Rayonun cəbhə xəttində yerləşən Horadiz şəhərində, Alıxanlı, Qazaxlar, Mirzənağılı və başqa yaşayış məntəqələrində də Novruz bayramı böyük ruh yüksəkliyi və təntənə ilə qeyd edildi, bayram tonqalları çatıldı.

### TƏRTƏR

Bolluq, bərəkət, yenilik və gözəllik bayramı olan Novruzu Tərtərin bütün yaşayış məntəqələrində, o cümlədən cəbhə xəttində yerləşən kəndlərində də böyük coşqu və təntənə ilə, sabaha dərin inam və ümidlə qarşılayırlar. Qabaqlı kəndinə getməyimiz heç də təsadüfi deyil. Düşmənlə ən yaxın məsafədədir. Əkin-biçin sahələri, örüş yerləri, necə deyərlər, 2 addımlıqdadır. Atəşkəs rejimi qüvvədə olsa da burada hər gün güllə səsi eşidilir, hücum və basqın ara vermir. Ona görə də kənd sakinləri məcbur olub əkin-biçin işlərini gecələr aparmalı olurlar. Qapanlıda elə bir ev yoxdur ki, orada güllə yerləri görünməsin. İndiyə kimi Qapanlı kəndi 23 şəhid verib ki, onların da yarısı mülki vətəndaşlardır. Elə Aprel döyüşlərini götürək. Atılan mərmilər nəticəsində 1 nəfər ölmüş, 1 nəfər isə ağır yaralanmışdır.

Ancaq bütün bunlar qəhrəman qapanlıların bayram əhval-ruhiyyəsini poza bilmir. Bunu kəndin ortasında çatılmış, az qala, göylərə bülənd olan bayram tonqalı da sübut edir. Tonqal başına toplaşanlara baxıram. Hamının çöhrəsində sevinc, sabaha dərin inam və ümid var. Yaşlısı da, cavanı da, uşağı da, sanki, eyni duyğu və düşüncələrlə yaşayır. Bu torpağın əsl sahibi bizik. Ulu babalarımızdan əmanətdir. Biz onu göz bəbəyimiz kimi qorumalıyıq. Qoy erməni tərəfi bu özgə torpağında bayquşluq etməyi ilə heç də öyünməsin. Biz bir qarış torpağımızı da işğal altında qoymayacağıq. Bu qələbə sorağını



isə bizə xalqımızın sarsılmaz iradəsi, ölkəmizin gündən-günə artan gücü, beynəlxalq nüfuzu, ölkə Prezidenti İlham Əliyevin müdrik və qətiyyətli siyasəti gətirəcəkdir.

Belə xoş düşüncələr, sabaha, qələbəyə olan sarsılmaz inam qəlbimizi dağa döndərir. Düşmənin namərd təxribat və hücumlarına baxmayaraq bir addım da olsun geri çəkilməyən, əksinə, onlara meydan oxuyan bu sadə cəsur insanlara minnətdarlıq hissi ilə baxıram. Onlar ən xoş sözlərə, ən böyük alqışa layiqdirlər. Bizi ixtiyar yaşlı bir ana– Sənəm Quliyeva ilə tanış etdilər. Bu hələ də düşmən əlində girov qalan Şahbaz Quliyevin anasıdır. Oğul həsrəti və kədər belini büksə də, dərdə təslim olmaq istəmir. Ən böyük arzusu isə, əlbəttə, oğlunun əsirlikdən azad olduğu gününü görməkdir:

– Biz əslən Kəlbəcərdənik. Torpaqlarımızın işğalından sonra Qapanlı kəndində məskunlaşmışıq. Doğma yurd-yuva həsrəti yadımızdan bir an belə çıxmasa da gün-güzəranımız pis keçmir. Ancaq Şahbazın girov düşməsi növrağımı pozdu. Bir neçə dəfə məktub almışıq. Yazır ki, guya, vəziyyəti yaxşıdır. Başının üstündə cəllad dura-dura başqa nə yaza bilər ki? İmkan düşər, o namərdlərə bircə sual verəm: öz dədə-baba torpaqlarına getmək nə vaxtdan cinayət hesab olunur? Tez-tez xəstələnsəm də, dərd məni üzsə də Şahbazsız ölümə can verməræm. Sağ olsun ölkə rəhbəri, elə bir görüş olmur ki, Şahbazgilin məsələsini qaldırmasın. Əlindən gələni edir, Allah köməyi olsun.

Kənd sakini Abbas Abbasov tez-tez cavanların gətirdiyi quru budaqları, odun parçalarını ocağa atır, son vaxtlar Qapanlı kəndində görülən sosial tədbirlərdən, adamlara göstərilən diqqət və qayğıdan həvəslə danışır.

– Təbii qaz, elektrik enerjisi, içməli su, yol və sair, əlbəttə, hər yerə lazımdır. Ancaq etiraf edək ki, bütün bu məsələlər cəbhə xəttində yerləşən yaşayış məntəqələrinə ikiqat-üçqat vacibdir. Biz onsuz da narahat vəziyyətdə, səksəkə içərisində yaşayırıq. Əlavə qayğı və narahatlıq gətirmək olmaz. Bu mənada son vaxtlar Tərtər Rayon İcra Hakimiyyətinin, digər idarə, təşkilat və müəssisələrin gündəlik diqqət və qayğısı bizi çox razı salır. Heç nədən çətinliyimiz, narazılığımız yoxdur. Ona görə də burada ürəkli dayanmışıq.

Hücum və basqınlar isə bizi əsla qorxutmur. Digər tərəfdən, biz öz ordumuza, əsgər və zabitlərimizə möhkəm inanırıq, onların cəsarət və qəhrəmanlığı ilə fəxr edirik. Bu dediklərimizə ən tutarlı misal Aprel döyüşləri oldu. Əsgərlərimiz bir göz qırpımında, sərrast atəşlə düşmən tərəfini susdura bildi. Demək istəyirəm ki, ön cəbhə də möhkəmdir, arxa cəbhədə.

### AĞDAM

Əvvəlcə kiçik bir müharibə statistikası aparaq: Dağlıq Qarabağ hadisələri başlanan ilk illərdə ən çox qaçqın və məcburi köçkün qəbul edən rayon Ağdam olmuşdur. Hərbi



əməliyyatların gedişində ən çox şəhid verən bölgə də Ağdamdır. Ən çox Milli Qəhrəmanı olan rayon da məhz Ağdamdır. Başqa sözlə desək, burada elə bir kənd, hətta elə bir ailə tapmıq olmaz ki, müharibənin ağrı-acısını duymasın, itki verməsin. Özü də söhbət təkcə fəal hərbi əməliyyatların keçirildiyi illərdən getmir.

Təəssüf ki, atəşkəs rejimi qüvvəyə minəndan sonra da itkilər ara vermir. Daimi hücum və atışma isə haqlı olaraq insanların qəzəb və nifrətinə səbəb olur. İntiqam hissi son həddə çatır. Onlar 26 ildən bəri düşmən tapdağında olan müqəddəs ata-baba torpaqlarımızın işğaldan azad olunmasını istəyir, lazım gələrsə qocalı-cavanlı silaha sarılaraq vuruşmağa hazır olduqlarını bildirirlər.

Bəlkə, elə ona görədir ki, bu il ağdamlılar Novruz bayramını daha çox coşqu və təntənə ilə qeyd edirlər. Cəbhə xəttinə yaxın olan yaşayış məntəqələrində bu daha çox hiss olunur. Elə bir kənd, elə bir küçə, məhəllə yoxdur ki, orada bayram tonqalları çatılmasın. Göylərə dikələn alov dilləri düşmənin gözünə ox kimi batır, intiqam gününün çox da uzaqda olmadığını göstərirdi.

Çıraqlı kəndi istər atəşkəsdən əvvəl, istərsə də sonra ən çox zərər çəkmiş yaşayış məntəqələrindən biridir. Kədərli və dözülməz olsa da, deməliyik ki, burada rəhmətə gedən kənd sakinlərini gündüzlər dəfn edə bilmirlər. Bəzi yerlərdə düşmənlə məsafə 100-200 metrdir. Bayramlarda, əkin-biçin vaxtlarında atışma daha intensiv şəkil alır. Təsadüfi deyildir ki, bu kənddə ölənlər, yaralananlar daha çoxdur.

Bizi ocaq başında ilk qarşılayan kənd ağsaqqalı Mötəbər Şükürov oldu:

– Xoş gəldiniz – dedi – sonra da ətrafa boylanaraq nigarançılıqla əlavə etdi ki, biz atışma səsinə öyrəşmişik. Ancaq siz... narahat olmursunuz ki?! Mən gülümsəyərək qolumu ixtiyar kişinin boynuna saldım:

– Narahat olsaydıq, gəlməzdik– dedim-- siz harda, biz də ordayıq…

Mötəbər kişi gözlərini alovdan çəkməyərək:

– Bilirsinizmi ay oğul,– dedi– düşmən olanda da gərək qeyrəti, insafı əldən verməyəsən. Erməniləri biz çoxdan, özü də yaxşı tanıyırıq. Onlara insan demək günahdır. Təsəvvür edin ki, hər dəfə Novruz bayramında, bizim ən əziz günümüzdə atəşkəs rejiminin tələbləri daha çox pozulur. Atışma bəzən saatlarla davam edir. Ancaq gördüyünüz kimi hamı burda, ocaq başındadır. Ona görə ki, biz öz ordumuza arxayınıq. Bir güllə atsalar, beş dəfə cavabını verərlər.

Ağsaqqalın sözünə onu da əlavə edək ki, istər Çıraqlıda, istərsə də digər cəbhəyanı kəndlərdə bütün sosial məsələlər öz uğurlu həllini tapmış, əhalinin elektrik enerjisinə, təbii qaza, içməli suya olan tələbatı tam ödənilmişdir. Rayon rəhbərliyi, əlaqədar idarə və müəssisə rəhbərləri, demək olar ki, hər gün yollarını bu kəndlərdən salır, sakinlərin ehtiyac və çətinlikləri dərhal aradan qaldırılır.

...Bu il Qarabağ torpaqlarında Novruz bayramı daha böyük təntənə ilə, özgə bir büsatla keçirilir. Hər yerdə, az qala, küllü Qarabağı işığa bürüyən ocaqlar qalanır, tonqallar çatılır. Axı Novruz özü ilə birlikdə bolluq, bərəkət, sabaha böyük inam və ümid, bir də yaxınlaşmaqda olan qələbə sorağını gətirir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# İlaxır çərşənbələrin tarixi-mədəni səciyyəsi



Azərbaycan folklorşünaslığında və etnologiyasında ən diqqətlə öyrənilən məsələlərdən biri də Novruz bayramı öncəsi qeyd olunan çərşənbələrdir. Bununla yanaşı, çərşənbələrin təqvim hadisəsi kimi köklərinin araşdırılmasına ciddi ehtiyac duyulur. Çünki çərşənbə mərasimlərinin ritual əsası onun təqvimdəki yeri və mənası ilə sıx əlaqəlidir. Çərşənbələrin təqvim hadisəsi və mifoloji kökləri barədə folklorşünaslığımızda aydın və yekdil bir fikir yoxdur. Bunun əvəzində onların etno-mədəni xarakterini açmaq adı ilə heç bir elmi qaynağa əsaslanmayan və xalq təqvimi ilə birbaşa bağlı olmayan uydurma mülahizələr də dövriyyəyə buraxılır.

"Novruz" adının mənasının "yeni gün" olduğunu bilirik. Çərşənbənin isə bu qədər aydın izahı yoxdur. "Çərşənbə" sözünün farsca "çəhar şənbə" deyimindən olduğunu nəzərə alsaq, onu "dörd şənbə" və ya "dördüncü şənbə" kimi hərfi tərcümə etmək olar. Amma bu izah da sözün semantikası haqqında aydın bir təsəvvür yaratmır. İndi İranda işlənən hicri təqviminə görə, həftədə günlərin adlarına diqqət etsək, orada "şənbə" sözünün sıx şəkildə işləndiyini görürük: yekşənbə, doşənbə, seşənbə, çeharşənbə, pəncşənbə, şənbə, come.

"Çeharşənbə" sözündəki "çehar" 4-dür. "Şənbə"nin mənası isə tam aydın deyil. Amma bunun Şərqdə istifadə olunmuş qədim təqvimlərdən birinin qalığı olduğu və həmin təqvimdə şənbənin əlamətdar gün sayıldığı aydındır. Bunun sami xalqlarında "şabbat" formasında qaldığı məlumdur. Slavyanlardakı "subbota"nın da eyni kökdən qaynaqlandığını düşünmək olar. Ola bilər ki, şənbə altıgünlük həftənin altıncı və ya istirahət günü olmuşdur.

"Şabbat"ın şənbə şəklində İran xalqlarında və türklərdə işlənməsi mümkündür. Yəhudilərdə "şabbat" indi də qeyd olunur. "Şabbat"ın iudaizmlə bağlı müəyyən dini mənası vardır. Ola bilər ki, İslamdan öncə Xəzər xaqanlığının türk əhalisinin iudaizm dininə mənsub olması sonralar da bu xalqların təqvimində öz izlərini saxlamışdır. Amma biz çərşənbəni altıncı gün deyil, "dörd şənbə" adı ilə ikinci gündən üçüncü günə keçən axşam qeyd edirik. Görünür, burada bir neçə təqvimin kəsişməsi baş vermişdir. Burada bizim də XI-XIX əsrlər boyu işlətdiyimiz hicri təqvimi, XX əsrdən işlətdiymiz miladi təqvimi ilə yanaşı, iudaizm təqvimi də bu və ya digər şəkildə özünü göstərir. Yəni "çərşənbə"nin mübarək gün olması ilə bağlı ənənəvi təsəvvürlərin izi müşahidə olunmaqdadır.

Şənbənin həftənin altıncı günü olduğunu bilirik. Bu da Uca Yaradanın dünyanı altı gündə və sonda insan yaratması haqqında dini təsəvvürlərlə əlaqəli görünür. Dünyanın altı gündə yaradılması şənbəni, dünyanı yaradan dörd ünsürün (su, od, hava, torpaq) hər birinin bir "şənbəlik" həftə sistemində qabardılması isə "çərşənbə"ni (dörd şənbə) müqəddəsləşdirir. İstər ilkin kosmoqoniya kimi, istər xalq təqvimi kimi, istərsə də dini bilgi kimi bu yanaşma özünü doğruldur.

Qədim dövrlərdə Novruzun gəlişi – əmək mövsümünün başlaması demək idi. Bu, insanları sevindirirdi. Bu baxımdan da onlar mal-qaranın, qoyun-quzunun yaza salamat çıxarılması, əkin-biçinin başlanması, bolluq olması üçün müxtəlif nəğmələr yaratmışdılar. Novruzqabağı nəğmələr adı ilə tanınan həmin nəğmələr üç qismə ayrılır. Çillə nəğmələri, ilaxır çərşənbə nəğmələri, bayram nəğmələri.

Novruza hələ 90 gün qalmış, yəni qışın böyük çilləsinin girməsilə bağlı çillə şənlikləri keçirilər və müxtəlif nəğmələr oxunardı. Bəzi bölgələrdə həmin nümunələrə "çilləkəsdi" və ya "çillədən çıxma" nəğmələri də deyilərdi. Qədim insanın yaradıcı təsəvvüründə qışın müxtəlif obrazlarına fərqli münasibətlər ifadə edilirdi. Bu xüsusiyyət çillə nəğmələrində də özünü göstərir.

Qədim etiqadlara görə qış çillələrə bölünür. Bunlardan birincisi qışın girməsi ilə başlanan böyük çillədir ki, qırx gün davam edir. İkincisi, xalqın öz ifadəsi ilə deyilsə, "qışın oğlan çağı"dır ki, kiçik çillə adlanır və iyirmi gün davam edir. Nəhayət, boz ay – qışın son ayı gəlir ki, bu da dörd həftədən (dörd balaca çillədən) ibarətdir. Yuxarıda deyildiyi kimi, bu bölgünün əsaslandığı yeddi və qırx rəqəmlərinin müqəddəsliyi islamiyyətdən də, zərdüştlikdən də çox qədimdir. Son ayın dörd yeddi günlük çilləyə bölünməsi isə, ümumiyyətlə, təbiətin dörd əsas ünsürdən ibarət olması etiqadına əsaslanır. Bu dörd ünsür hava, torpaq, su və oddur. Qədim etiqadlara görə, son ayın hər həftəsində bu ünsürdən biri canlanır, oyanır, yenidən yaşamağa başlayır. Bunların hamısının dirilməsi, yenidən həyata qayıtması ilə də, ümumiyyətlə, təbiət oyanır, qış qurtarır, yaz başlanır. Qədim və orta əsrlərdə bu dörd ünsürdən hər birinin qışın əsarətindən qurtarması həmin ünsürün adı ilə bağlı olan həftənin çərşənbəsində xüsusi bir şəkildə qeyd edilirmiş. Qurtaran ilin axır çərşənbəsində isə bütün evlərin həyətində tonqal qalanır, hamı odun üstündən tullanaraq "Ağırlığım, uğurluğum", yaxud "Azarım, bezarım, tökül bu odun üstünə" deyirmiş.

Xalqımız zaman-zaman ölkəmizdə hakim olmuş müxtəlif dinlərin, siyasi sistemlərin, ayrı-ayrı hökmdarların təsis etdikləri bayramları, mərasimləri unutmuş, amma bütün qadağalara, gözdənsalmalara baxmayaraq, Novruzu – insanı əməyə, zəhmətə, maddi nemətlər yaratmağa çağıran bu təqvim və təsərrüfat gününü unutmamış, ən əziz bayramı kimi əsrlər boyu yaşatmış, adət-ənənəsinin qızıl səhifəsi kimi nəsildən-nəslə ötürmüşdür. Azərbaycan xalqı öz əzmkarlığı ilə BMT tərəfindən ümumdünya bayramları sırasına saldırmağa nail olduğu Novruzu indi də həvəslə gözləyir, hörmətlə qarşılayır, onun mərasimlərini xüsusi bir məhəbbətlə icra edir. Novruz və ondan öncə keçirilən çərşənbələr xalqımızın həyata, təbiətə, torpağa, zəhmətə məhəbbətinin təzahürüdür.

Novruz mərasimi nəğmələrinin müəyyən bir hissəsini çərşənbələrlə bağlı nəğmələr təşkil edir. Yeni ilin, yeni günün – Novruzun gəlişinə ən azı dörd həftə əvvəldən hazırlıq görülür.Yazın gəlişini intizarla gözləyən qədim əkinçi, əslində, böyük çilləni yola saldıqdan sonra yerdə qalan bir ay iyirmi günün, yəni yeddi həftənin hər çərşənbəsini bayram edirdi. Bunlardan birinci üçünə "oğru üsgü", ikinci üçünə "doğru üsgü", sonuncusuna isə "axır çərşənbə" deyilirdi. Bu çərşənbələrin hərəsinə görə məxsusi mərasim ənənələri vardı. Qışın çıxmasına altı çərşənbə boyu hazırlıq görmüş xalq, nəhayət, son çərşənbə günü bir yerə toplaşaraq onu yola salır, yeni ilin, yəni yazın ilk gününu elliklə bayram edirdi.

Çərşənbələr Novruz bayramının ən mühüm atributlarıdır. Hər bir çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələrin simvolik obrazı formalaşmışdır. İlin son ayının dörd çərşənbəsi ilaxır çərşənbələr sayılır. Novruz öncəsi qeyd olunan son çərşənbə isə "axır çərşənbə" adlanır. İlaxır çərşənbələrin birincisi su çərşənbəsidir. Su çərşənbəsi boz ayın dörd müqəddəs çərşənbəsinin ilkidir. Xalq arasında o, "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular novruzu", "gül çərşənbə" kimi də tanınır. Su çərşənbəsi qədim insanın suya tapınma inancı ilə bağlıdır. Məsələn, qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması inamı türk mifoloji təfəkkürünün əsas elementlərindən biridir.

İlaxır çərşənbələrin ikincisi od çərşənbəsidir. Buna xalq arasında "üsgü çərşənbə", "üskü gecəsi", "ikinci cərşənbə", yaxud "addı çərşənbə" də deyilir. Od müqəddəs hesab edilirdi. Çox qədim keçmişdə yeni anadan olmuş uşağı odun başına dolandırmaqla paklayar ancaq bundan sonra ananın qucağına verərdilər. Bu yolla paklaşmamış uşaq murdar hesab edilər, buna görədə ana onu rahatlıqla qucağına ala bilməzmiş. Bu inamın və buna əsaslanan xüsusi mərasimin çox aydın izi bu gün də "Çevir ocağa, al qucağa" kimi atalar sözlərində yaşamaqdadır.

Yel çərşənbəsi ilaxır çərşənbənin üçüncüsüdür. Xalq arasında bu çərşənbəyə "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yel çərşənbəsi" də deyilir. Yel çərşənbəsi ilə bağlı bir sıra deyim və inanclar var. Onlardan birini təqdim edirik: Yel çərşənbəsi gecəsi söyüd ağacının altına keçib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqları sənə toxunsa, diləyin yerinə yetər.

Torpaq çərşənbəsi ilaxır çərşənbələrin dördüncüsüdür. Başqa sözlə desək, o, sonuncu, yaxud axır çərşənbədir. Qədim adətə görə, axır çərşənbə günündə əcdadların, əzizlərin məzarları ziyarət olunar, onların ruhuna dualar oxunar. Xalqımızın axır çərşənbə ilə bağlı bir adəti də budur ki, həmin çərşənbə axşamında adamlar od üstündən yeddi dəfə o yan-bu yana atılar, bununla da köhnə ilin azar-bezarını, dərd-bəlasını özlərindən qovub təzə ilə sağlam canla qədəm qoyduqlarına inanarlar.

Axır çərşənbə günü axşam çağları qonşuların qapısını sakitcə pusurlar. Qapıya yaxınlaşarkən eşidilən ilk sözü və ya ifadəni yozub, gələcək barədə müəyyən mülahizələr söyləyirlər. Məsələn, ilk eşidilən sözlər "işığı yandır", "yaxşı olacaq" və s. olarsa, hər şeyin yaxşı olacağı güman edilir. Əksinə, "söndür", "başım ağrıyır" və s. kimi sözlər eşidilərsə, pis tərəfə yozulur. Xalqımızın folklor yaradıcılığında çərşənbələrlə bağlı onlarca deyim, sınama, tapmaca, atalar sözü, nəğmə, rəvayət vardır.

Beləliklə, çərşənbələr xalqımızın bayram mədəniyyətinin rəngarəngliyini əyani şəkildə nümayiş etdirən əlamətdar hadisələrdir. Onların eramızdan əvvəl başlanan qədim tarixi vardır. Çərşənbə mərasimlərinin məzmunu yaradılışla bağlı dörd sakral ünsür haqqındakı qədim təsəvvürlərdən, əski xalq inanclarından, arxaik ritual elementlərindən, altı günlük təqvim sistemindən və yazın gəlişi ilə bağlı mövsüm şölənlərindən qaynaqlanır. Hazırda çərşənbələr yaz mövsümü ilə bağlı keçirilən Novruz bayramı mədəni kompleksinə daxildir və bir ay öncədən xalqı böyük bayrama – Novruza hazırlayır, cəmiyyətdə bayram ovqatını səfərbər edərək ictimai əhval-ruhiyyəni yüksəldir və sosial harmoniyanın təmin edilməsində ciddi rol oynayır.

***Ağaverdi XƏLİL,***
***AMEA Folklor İnstitutunun mərasim folkloru şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru***

# Sumqayıt bulvarında möhtəşəm şənlik

***❐ Min illərdir ki, xalqımız baharın gəlişini Novruz bayramı ilə qeyd edir, bu bayramı öz milli varlığı kimi qoruyub saxlayır. Bu il 70 yaşı tamam olan Sumqayıt şəhəri Novruz bayramına daha mütəşəkkil hazırlaşıb.***

Qocaman Xəzərin aynasında bəzənib cilvələnən gənclər şəhərinin ən gözəl istirahət guşəsi olan park-bulvar kompleksi baharın pişvazına başdan-



başa bayram libasında çıxmışdı. Bayram şənliyində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, şəhər rəsmiləri, ictimaiyyət nümayəndələri və minlərlə sakin iştirak edirdi. Z.Fərəcov şəhər sakinlərini təbrik edərək, böyük bayram tonqalını alışdırdı.

Dədə Qorqud və Bahar qız camaata xeyir-dua verərək, Novruz bayramının xalqımıza uğur, bol ruzi-bərəkət gətirməsini arzuladılar. Milli geyimli uşaqlar oynaq musiqinin qanadlarında pərvazlanaraq meydan boyunca rəqs etdilər. Bulvarın girişində Novruz bayramına həsr olunmuş maraqlı ədəbi-bədii kompozisiya təqdim olundu. Bədöy atlı igidlər, gənc aşıqlar, nağaraçalanlar bayrama xüsusi rəng qatdılar.



Sonra şənlik bulvar boyunca xalq gəzintisi və bayram şənlikləri ilə davam etdi. Səmənilər, xonçalar və digər Novruz atributları ilə bəzədilən bulvarda milli bayramın personajları olan Kosa və Keçəlin iştirakı ilə qədim xalq rəqsləri və oyunları, idmançıların və kəndirbazların göstərdiyi heyrətamiz nömrələr şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Tədbirə qatılanlar xalqımızın əsrlər boyu qoruyub saxladığı milli-mənəvi dəyərləri əks etdirən səhnələrə, odlar yurdunun Bakı, Naxçıvan, Lənkəran, Qarabağ, Şirvan, Şəki və digər bölgələrini təcəssüm etdirən bayram çadırlarının ətrafında qayım-qədim milli etnoqrafiyamızın, əsrləri aşan elat adətlərinin, misilsiz Azərbaycan mətbəxinin və ulu xalq sənətkarlığının gözəl nümunələrinə maraqla tamaşa etdilər. Sumqayıt Regional Mədəniyyət İdarəsinin, Musiqi və Tibb kolleclərinin təqdimatları, yerli gündəlik tələbat malları və turizmlə bağlı sərgi gözkönül sevindirdi. İcra başçısı şəhərin ziyalıları ilə, məktəbli-istedadlarla, adi vətəndaşlarla görüşüb səmimi söhbətlər etdi. Xatirə şəkilləri çəkdirildi.

Sonda park-bulvar kompleksində möhtəşəm bayram konserti oldu. Respublikamızın tanınmış sənət adamları, ünlü mədəniyyət xadimləri şənliyi daha da rövnəqləndirdilər.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Goranboyda bayram yarmarkası



**❐ Respublikanın bütün şəhərlərində və rayon mərkəzlərində olduğu kimi, Goranboy şəhərində də Novruz yarmarkası təşkil edilmişdir.**

Rayon icra hakimiyyətindən aldığımız məlumatda bildirilir ki, yerli istehsalçıların bu aksiyada fəal iştirak etməsi üçün lazımi şərait yaradılmışdır. Artıq 100-ə yaxın fermer öz məhsullarını sərfəli qiymətlərlə satışa çıxarmışdır. Martın 16-dan start götürən yarmarkanın çevrəsi bayram yaxınlaşdıqca genişlənir, şatışa çıxarılan məhsulların çeşidi artır.



Rayonun ayrı-ayrı kəndləri özünəməxsus məhsulları ilə tanınır. Veyisli, Todan, Mənəşli, Buzluq, Zeyvə və Şəfəq kəndlərindən gətirilən alma, armud, dağ kəndlərindən gətirilən qoz, fındıq, əksər yaşayış məntəqələrindəki istixanalarda yetişdirilən pomidor, xiyar, badımcan, bibər, Qaradağlı, Şadılı, Kəhrizli, Zeyvə kəndlərinin göyərtisi, Muzdurlar və Balakürd kəndlərinin süd və süd məhsulları, Dəyirmanlar, Yeniyol, Qırıqlı kəndlərinin quş və mal əti, Rus Borisi və digər dağ kəndlərindən toplanan kartof, kələm, kök, çuğundur, habelə yarmarkaya çıxarılan digər məhsullar bazar qiymətləri ilə müqayisədə xeyli ucuz və keyfiyyətli olduğu üçün alıcılarda razılıq hissi yaradır. Satış üçün ödəniş etməyən fermerlər də razıdırlar. Onlar istehsal etdikləri məhsulları yerli bazarda rahatlıqla satır, istədikləri gəliri götürürlər.

Hər gün yarmarkada bir tonadək meyvə, 500 kiloqram kartof, kələm, 2000 ədəd göy dəstəsi, 500 kiloqram ət, 1000-1500 ədəd yumurta, 500-700 kiloqram qoz, fındıq satılır. Bayram yaxınlaşdıqca yarmarkada canlanma artır, hər gün bura minlərlə alıcı gəlir.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev tez-tez yarmarkaya gəlir, fermerlərlə görüşür, məhsulun keyfiyyəti və qiyməti ilə maraqlanır, alıcılarla ünsiyyətdə olur, onların rəy və təkliflərini öyrənir.

***Z. SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Nəsimililərin Vətənin müdafiəçilərinə Novruz töhfəsi

**Ümumxalq bayramlarını cəbhə bölgəsində Vətənin müdafiəçiləri ilə birgə keçirmək son illərdə paytaxtın Nəsimi rayonunda ənənəyə çevrilmişdir.**





Novruz şənlikləri çərçivəsində Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nüməyədələri və tanınmış incəsənət ustaları Müdafə Nazirliyinin Bərdə korpusunun "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabitlərin qonağı olmuş, bayram çərşənbəsini onlarla bir yerdə qeyd etmişlər. Nəsimililər hərbi hissə komandanlığı ilə birlikdə burada qulluq edən əsgərlər və gənc zabitlərlə görüşmüş, onların xidmət və məişət şəraiti ilə yaxından maraqlanmış, kazarmalar və yeməkxana ilə tanış olmuşlar. Qonaqlar Nəsimi RİH-in Novruz töhfələrini, əsgər ləvazimatı dəstlərini, paytaxt məktəbləri kollektivlərinin bayram xonçalarını və şagirdlərin sevgi-sayğı məktublarını şəxsi heyətə təqdim etmişlər.

Şəxsi heyətin iştirakı ilə keçirilən təntənəli mərasimdə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov hərbi hissənin şəxsi heyətini xalqımızın əziz bayramı olan Novruz münasibəti ilə təbrik etmiş, onlara çətin və şərəfli xidmətlərinin yerinə yetirilməsində uğurlar arzulamışdır. O, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində işğal altında olan bütün Azərbaycan torpaqlarının düşməndən azad ediləcəyinə, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə xalqımızın əmin olduğunu bildirmişdir. Asif Əsgərov ordumuzun və ölkə gəncliyinin də hər an silaha sarılaraq torpaqlarımızı hərbi yolla azad etməyə hazır olduğunu böyük inam və öyünclə vurğulamışdır.

Hərbi hissə komandanlığı şəxsi heyətin xidməti və döyüş hazırlığı barədə məlumat vermiş, Nəsimi Rayon İcra Hakimiyyəti rəhbərliyinə dostluq və hamilik əlaqələrinin daha da möhkəmləndirilməsi və Novruz bayramı şənliyinin təntənəli təşkilinə görə minnətdarlıq etmiş, belə görüş və şənliklərin hərbçilərdə böyük ruh yüksəkliyi, Vətənin müdafiəsi ilə bağlı dərin məsuliyyət hissi yaratdığını vurğulamışdır.

Xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin bir qrupu Nəsimi Rayon İcra Hakimiyyətinin xatirə hədiyyələri ilə mükafatlandırılmışdır. Şənliyin davamında ölkənin ünlü sənətçiləri görüşü böyük konsert proqramı ilə təravətləndirmişlər.

Nəsimi RİH-in heyəti xidmətdə fərqlənən və hərbi hissə komandirinin əmri ilə bayram məzuniyyəti ilə mükafatlandırılan bir qrup əsgəri özləri ilə Bakıya gətirmiş və evlərinə çatdırmışlar.

***R.TAHİR,***
***"Xalq qəzeti"***


# BİLDİRİŞ

**"Xalq qəzeti"nin 31 yanvar və 13 fevral 2019-cu il tarixli nömrələrində**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsinin 2019-cu ildə tender prosedurlarından istifadə etməklə satınalınması nəzərdə tutulan meyarı (ölçüsü, miqdarı, həcmi və sair) məlum olan malların satınalınması məqsədilə dərc edilmiş dərman preparatlarının, tibbi ləvazimatların, tibbi reaktivlərin, vaksinlərin və dezinfeksiyaedici maddələrin, baytarlıq dərman preparatlarının, hərbi qulluqçuların tibb müəssisələrində tibbi müayinələrinin aparılmasının satınalınması üçün keçirilən 4 lotdan ibarət açıq tenderdə lot-3. Hərbi qulluqçuların tibbi müayinələrinin aparılması və 2019-cu ildə lövhələrin, təbliğat-təşviqat vasitələrinin və dövri mətbuatın satınalınması üzrə isə lot-3. Dövri mətbuatın satınalınması üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələblərinə əsasən adı çəkilən lotlar üzrə malların satınalınması məqsədilə tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***



# "MƏİŞƏT MAYE QAZ" QSC-nin 2018-ci il üzrə illik hesabatı

"Məişət Maye Qaz" QSC-nin 2018-ci ilin yekunlarına görə illik H E S A B A T I

Emitent - "Məişət Maye Qaz" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında " 3 fevral 2016-cı il tarixli, 760 nömrəli fərmanına müvafiq olaraq aşağıdakıları bildirir.

**1. Emitentin adı-** "Məişət Maye Qaz" Qapalı Səhmdar Cəmiyyəti.

**2. Təşkilati-hüquqi forması-** Qapalı Səhmdar Cəmiyyəti.

**3. VÖEN**-2002334681.

**4. Dövlət qeydiyyatı-** 24 may 2012-ci il, N2002334681.

**5. Emitentin hüquqi ünvanı-** AZ 1025, Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi 46.

**6. Emitentin faktiki ünvanı-** AZ 1030, Bakı şəhəri, Nizami rayonu, Ə. Nəvai küçəsi 15.

**7. Emitentin adında və təşkilati -hüquqi formasında dəyişiklik və digər hüquqi şəxsin yenidən təşkili yolu ilə yaradılması barədə məlumat-** dəyişiklik yoxdur, digər hüquqi şəxsin yenidən təşkili yolu ilə yaradılmayıb.

**8. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəlikləri haqqında məlumat-** filiallar və nümayəndəliklər yaratmayıb və ləğv etməyib.

**9. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu barədə məlumat-** olmayıbdır.

**10. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti haqqında məlumat-** törəmə cəmiyyət yaratmıyıb və ləğv etməyib.

**11. Emitentin lisenziya və ya icazəyə malik olması barədə məlumat-**

11.1. 8 iyul 2016-cı il tarixli, İN/L-1602/2016 qeydiyyat nömrəsi "Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı" haqqında müddətsiz lisenziya.

11.2. 31 oktyabr 2016-cı il tarixli, İN/L-2060/2016 qeydiyyat nömrəsi "Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlığın və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi" haqqında müddətsiz lisenziya.

11.3. 31 oktyabr 2016-cı il tarixli, İN/L-2061/2016 qeydiyyat nömrəsi "Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi" haqqında müddətsiz lisenziya.

11.4. 31 oktyabr 2016-cı il tarixli, İN/L-2046/2016 qeydiyyat nömrəsi "Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri" haqqında müddətsiz lisenziya.

**12. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri-** xidmətlər göstərilməsi.

**13. Emitentin təklif etdiyi xidmətlər-** maye qazın alınması, satışı və nəqli, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı.

**14. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:**

2019-cu il yanvarın 1-nə işçilərin ümumi sayı: 417 nəfər

14.1. 1-ci rüb ərzində- qəbul olunub - 7 nəfər işdən azad olunub - 6 nəfər.

14.2. 2-ci rüb ərzində- qəbul olunub - 12 nəfər işdən azad olunub - 11 nəfər.

14.3. 3-cü rüb ərzində- qəbul olunub - 18 nəfər işdən azad olunub - 18 nəfər.

14.4. 4-cü rüb ərzində- qəbul olunub - 19 nəfər işdən azad olunub - 10 nəfər.

**15. Emitentin idarəetmə orqanları haqqında məlumat-** icra orqanı – baş direktor Rasim Ramiq oğlu Salmanov.

**16. Emitentin səhmdarlarının sayı-** 2 səhmdar – hüquqi şəxs "Femida" Məhdud Məsuliyyətli Cəmiyyəti və fiziki şəxs Salmanov Rasim Ramiq oğlu.

**17. Emitentin nizamnamə kapitalının 5%-i və daha artıq həcmdə səsli səhmlərə malik olan səhmdarları -**

**17.1. "Femida" Məhdud Məsuliyyətli Cəmiyyəti –** 99,5967%, VÖEN 0200051241, 3 097 976 (üç milyon doğsan yeddi min doqquz yüz yetmiş altı) manat dəyərində, 1 548 988 ədəd adi, adlı, sənədsiz səhm. Olduğu yer: Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Oqtay Kərimov küçəsi 45.

**18. Nizamnamə kapitalında emitentin payı 5%-dən az olmayan hüquqi şəxsləri-** yoxdur.

**19. Emitentin səhmdarlarının hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat-**

**19.1. Yığıncağın keçirilmə tarixi və yeri-** 3 aprel 2018-ci il, Bakı şəhəri, Nizami rayonu, Ə. Nəvai küçəsi 15.

**ümumi yığıncaqda qəbul edilmiş qərarlar-**

"Məişət Maye Qaz" QSC-nin baş direktoru R.R. Salmanovun 2017-ci il yanvarın 1-dən dekabrın 31-dək vəzifədə olduğu dövr üzrə maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar hesabatı məqbul hesab edilsin.

"Məişət Maye Qaz" QSC-nin baş mühasibi R.D.Əli-zadənin çıxışı bəyənilsin. "Məişət Maye Qaz" QSC-nin 2017-ci ilin nəticələrinə görə yekun balans hesabatı təsdiq edilsin. Səhmdarlara (təsisçilərə) cəmiyyətin 2017-ci ilin yekunlarına görə ümumilikdə çatacaq (ödənilməmiş) 481 807,14 manat **(**dörd yüz səksən bir min səkkiz yüz yeddi manat, 14 qəpik**)** məbləğində xalis mənfəət QSC-nin 2017-ci il üzrə istehlak fondu xərclərinin bağlanmasına yönəldilsin.

**20. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumatı-**.

**20.1. İnvestisiya qiymətli kağızın növü və forması-** adi, sənədsiz səhm.

**20.2. İnvestisiya qiymətli kağızları-** 1 555 260 ədəd, qiymətli kağızın nominal dəyəri 2,0 manat.

**21. Qiymətli kağızların miqdarı və nominal dəyəri-**

21.1. Ümumi miqdarı- 1 555 260 ədəd səhm.

**22. Səhmlərin dövlət qeydiyyat nömrəsi və tarixi-**

22.1. 16 iyul 2012-ci il tarixli AZ1001009542 N-li.

**23. Səhmlərin məcmu nominal dəyəri-** 3 110 520,0 manat (2 x 1 555 260=3 110 520,0).

**24. Yerləşdirilmiş səhmlərin miqdarı- 1 555 260** ədəd.

**25. Yerləşdirilmiş səhmlərin vəziyyəti-** başa çatmışdır.

**26. Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumat-** xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

**27. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanmış əqdlər barədə məlumat-** aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

**28. Emitentin yığıncağının protokolu -** 28 fevral 2019-cu il tarixli protokol.

**29. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər-** "Məişət Maye Qaz" QSC-nin 2018-ci ilin nəticələrinə görə yekun balans hesabatı təsdiq edilsin. Cəmiyyətin 2018-ci ilin yekunlarına görə ümumilikdə səhmdarlara (təsisçilərə) çatacaq (ödənilməmiş) 2 505 355,84 manat (iki milyon beş yüz beş min üç yüz əlli beş manat, 84 qəpik) məbləğində xalis mənfəət QSC-nin 2018-ci il üzrə istehlak fondu xərclərinin bağlanmasına yönəldilsin.

**30. Açıqlama mənbəyi – *"Xalq qəzeti"***

## MÜHASİBAT BALANSI

***(manatla)***

| AKTİVLƏR | **Hesabın №-si** | 1 yanvar 2018-ci il | 1 yanvar 2019-cu il |
|---|---|---|---|
| Uzunmüddətli aktivlər | | | |
| Qeyri-maddi aktivlər | 101 çıxılsın 102 üstəgəl 103 | 2 470,50 | 2 223,45 |
| Torpaq, tikili və avadanlıqlar | 111 çıxılsın 112 üstəgəl 113 | 14 637 842,58 | 13 496 664,87 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | 14 640 313,08 | 13 498 888,32 |
| Qısamüddətli aktivlər | | | |
| Ehtiyatlar | 20X çıxılsın 208 | 848 659,24 | 199 999,84 |
| Qısamüddətli debitor borcları | 21X çıxılsın 218 | 2 306 732,32 | 537 230,30 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 285 046,66 | 577 250,79 |
| Sair qısamüddətli aktivlər | 24X | 5 199 462,20 | 262 766,14 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | 8 639 900,42 | 1 577 247,07 |
| **CƏMİ AKTİVLƏR** | | 23 280 213,50 | 15 076 135,39 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 301 çıxılsın 302 | 3 110 520,00 | 3 110 520,00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 34X çıxılsın 344 | 468 015,99 | |
| **CƏMİ KAPİTAL** | | 3 578 535,99 | 3 110 520,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | 0,00 | 0,00 |
| Qısamüddətli öhdəliklər | | | |
| Qısamüddətli kreditor borcları | 53X | 782 998,96 | 2 680 060,26 |
| Sair qısamüddətli öhdəliklər | 54X | 18 918 678,55 | 9 285 555,13 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | 19 701 677,51 | 11 965 615,39 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | 19 701 677,51 | 11 965 615,39 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | 23 280 213,50 | 15 076 135,39 |

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT (xərclərin funksiyaları üzrə)

| | **Hesabın № si** | **2018-ci il** |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 601 çıxılsın 602 çıxılsın 603 | 23 734 304,52 |
| **Ümumi mənfəət** | | **23 734 304,52** |
| Kommersiya xərcləri | 711 | 20 602 609,72 |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **20 602 609,72** |
| Maliyyə mənfəəti (zərəri) | 631 çıxılsın 751 | 3 131 694,80 |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | | 3 131 694,80 |
| Mənfəət vergisi | 901 üstəgəl 902 | 626 338,96 |
| **Adi fəaliyyətdən mənfəət (zərər)** | | |
| İşçi heyəti üzrə xərclər | 533 nömrəli hesabın krediti üzrə dövriyyə | 1 989 438,35 |
| Amortizasiya xərcləri | 102, 112, 122, 132, 142 nömrəli hesabların kreditləri üzrə dövriyyə | 1 826 856,48 |
| Sair əməliyyat xərcləri | 731 | 16 786 314,89 |
| **Cəmi əməliyyat xərcləri** | | **20 602 609,72** |

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| ***Göstəricilər*** | ***1 yanvar 2019-cu il*** |
|---|---|
| ***Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti*** | |
| ***Hesabat dövründə xalis mənfəət və ya zərər*** | ***3131694,80*** |
| ***Mənfəət vergisi üzrə xərclər*** | ***626338,96*** |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | ***3758033,76*** |

***Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti***

| | |
|---|---|
| ***Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği*** | ***577250,79*** |
| ***Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentləri*** | ***577250,79*** |

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | **Nizamnamə kapitalı** | **Kapitalın cəmi** |
|---|---|---|
| **Əvvəlki dövrün əvvlinə qalıq** | **3 110 520,00** | **3 110 520,00** |
| **Əvvəlki dövrün sonuna qalıq** | **3 110 520,00** | **3 110 520,00** |
| **Hesabat dövrünün əvvəlinə qalıq** | **3 110 520,00** | **3 110 520,00** |
| **Hesabat dövrünün sonuna qalıq** | **3 110 520,00** | **3 110 520,00** |

# Xarici xəbərlər

## Misir

### 2 milyard dollarlıq saziş



Misir Rusiyadan "Su-35" qırıcı təyyarələri alacaq. Bildirilir ki, bununla əlaqədar tərəflər arasında 20-dən çox təyyarənin və silah-sursat satışı barədə müqavilə imzalanıb. Sazişin dəyəri 2 milyard dollar təşkil edir. Qeyd edək ki, təyyarələr və hərbi sursat 2020-2021-ci illərdə qarşı tərəfə çatdırılacaq.

**Məlumatı BBC yayıb.**

## Yaponiya

### Yeni sualtı qayıq hazırlanıb



Yaponiya Hərbi Dəniz Qüvvələrinə "Soryu" sinfindən olan yeni sualtı qayıq verilib. Bildirilir ki, "Kawasaki Shipbuilding" şirkətinin istehsalı olan qayığın uzunluğu 84 metrdir. Yeni sualtı gəmi 6 torpedo aparatı ilə təchiz edilib ki, bunlardan həm də "Harpoon" raketləri də buraxıla bilər. Qeyd edilir ki, bu, "Soryu" sinfindən olan 10-cu qayıqdır.

**Xəbəri "Naval Today" verib.**

## Almaniya

### 95 min avtomobil geri çağırılıb



"Mercedes-Benz" şirkəti Çin bazarında satılmış 95 min avtomobili geri çağırıb. Geri çağırılma 2016-cı ildən 2018-ci ilin aprelinədək şirkətin Pekindəki müştərək müəssisəsində istehsal olunan "E" və "GLC" modellərinə şamil olunur. Qeyd edilir ki, geri çağırılmaya bu avtomobillərin sükan sistemində yaranmış texniki nasazlıq səbəb olub.

**Xəbəri "Auto.tut.by" verib.**

## Belçika

### Dünyanın ən bahalı göyərçini



Dünyanın ən bahalı göyərçini Belçikada keçirilən hərracda 1 milyon 252 min avroya satılıb. Bildirilir ki, uzun məsafə üzrə yarışların çempionu olan "Armando" adlı 5 yaşlı poçt göyərçini çinli mütəxəssis tərəfindən satın alınıb. Yeni sahibi dünyanın ən bahalı göyərçinini yarışa buraxmayacağını və ondan yalnız damazlıq məqsədilə istifadə edəcəyini bildirib.

Xatırladaq ki, 2017-ci ildə Belçikada keçirilən hərracda daha bir poçt göyərçini 400 min avroya satılmışdı.

**Məlumatı "Anadolu" yayıb.**

## İspaniya

### Messidən növbəti rekord



"Barselona" klubunun hücumçusu Lionel Messi yeni rekorda imza atıb. Argentinalı hücumçu La Liqanın 28-ci turu çərçivəsində "Betis"lə keçirilən oyunda 477-ci qələbəsini qazanıb və bununla da Xavi Hernandezi qabaqlayıb. Qeyd edək ki, Hernandezin hesabında 476 qələbə var. "Barselona"da bu göstəriciyə görə üçüncü yerdə isə sabiq yarımmüdafiəçi Andres İnyesta (459) yer alıb. Yeri gəlmişkən, Messi cari mövsümdə İspaniya çempionatında 26 oyuna 29 qol vurub.

**Xəbəri "Eurosport" verib.**

*Hazırladı: Elçin ABBASOV, "Xalq qəzeti"*

# R.T.ƏRDOĞAN: Ankaranın "S-400" raketləri ilə bağlı sazişdən geri çəkilmək fikri yoxdur



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Haberturk" telekanalına müsahibəsində bildirib ki, Ankaranın Rusiyanın "S-400" raketlərini almaqla bağlı imzalanan sazişdən heç bir vəchlə geri çəkilmək fikri yoxdur. Bu barədə "Anadolu" agentliyi məlumat yayıb.**

Dövlət başçısı deyib ki, Türkiyə bu məsələni birdəfəlik həll edib. Onun sözlərinə görə, bu ilin iyulunda artıq Rusiya raketləri Türkiyəyə gətiriləcək. Prezident, həmçinin əlavə edib ki, Türkiyə, eyni zamanda, ABŞ-ın "Patriot" hava hücumundan müdafiə sistemlərinin satışı ilə bağlı danışıqları davam etdirməyə hazırdır.

Xatırladaq ki, ABŞ rəsmiləri Türkiyənin Rusiyanın "S-400" raketlərini almasına etiraz edirlər. Lakin Ankara mövqeyində israrlıdır. Bildirir ki, Türkiyə, hətta "Patriot" raketləri almalı olsa belə, Rusiya ilə sazişi pozmayacaq. Yeri gəlmişkən, siyasi təhlilçilər belə bir məqamı xatırlatmalı olurlar ki, "S-400" raketləri ilə sazişdən qabaq, "nədənsə" Pentaqon "Patriot" raketlərini Türkiyəyə verməkdən yayınmağa çalışırdı.

R.T.Ərdoğan müsahibədə ölkə iqtisadiyyatının hazırkı durumu və inkişaf perspektivləri məsələsinə də toxunub. Bildirib ki, qlobal iqtisadi problemlərin yaratdığı çətinliklərə baxmayaraq, Türkiyə iqtisadiyyatında bu ilin ikinci rübündən başlayaraq, müsbət meyillərin başlanacağı proqnozlaşdırılır.

Dövlət başçısı sonda əminliklə bildirib ki, ölkədə iqtisadi sahədə ciddi çətinliklər artıq arxada qalıb, qarşıda pozitiv proseslər baş verəcək.

*M.HACIXANLI, "Xalq qəzeti"*

# Yeni inkişaf modeli hazırlanıb



**"Associated Press" agentliyinin yaydığı məlumata görə, Birləşmiş Millətlər Təşkilatının (BMT) Ətraf mühitin mühafizəsi üzrə Assambleyasının IV sessiyasının iştirakçıları planetdə tükənməkdə olan resursların qorunub saxlanması nəzərə alınmaqla, yeni inkişaf modeli hazırlayıblar.**

Bildirilir ki, sessiya iştirakçıları yeni innovasiyalardan istifadə etmək, sabit istehsal və istehlak formalarına keçmək barədə razılığa gəliblər.

Qeyd edək ki, dünyanın 179 ölkəsini təmsil edən nazirlər 5 günlük görüşün yekununa dair bəyannamə qəbul ediblər. Sənəddə yeni inkişaf modellərinin tətbiq edilməsinin zəruriliyi vurğulanır. Sənədin müəllifləri planetimizin ekoloji çirklənməsi, qlobal istiləşmə və resursların tükənməsi ilə əlaqədar ciddi narahatlıqlarını bildiriblər.

"Biz təsdiq edirik ki, yoxsulluğun aradan qaldırılması, qeyri-sabit istehsal və istehlak modellərindən imtina edilməsi, təbii resursların qorunması və onlardan səmərəli idarə edilməsi sabit inkişaf prosesinin mühüm tərkib hissələridir",-deyə bəyanatda deyilir.

Qeyd edək ki, forum nümayəndələri birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik məhsulların istifadəsini 2030-cu ilə qədər əhəmiyyətli dərəcədə azaltmaq əzmində olduqlarını bildiriblər.

*Rövşən ATAKİŞİYEV, "Xalq qəzeti"*

# Yeni Zelandiyanın Baş naziri terror nəticəsində yaralananlarla görüşüb



**Yeni Zelandiyanın Baş naziri Castina Ardern müsəlman sakinlərə qarşı terror hücumunun baş verdiyi Kraystçerç şəhərinə gəlib. Bu barədə "The New Zealand Herald" nəşrinə istinadən TASS məlumat yayıb.**



Səfərdə onu Baş nazirin müavini Uinston Piters, ölkənin aparıcı partiyalarının liderləri və bir sıra nazirlər müşayiət edib. Ardern şəhər rəhbərliyi və sakinlərlə görüşüb. Eyni zamanda, Linvuddakı Kenterberi qaçqın düşərgəsində məskunlaşmış müsəlman icmasının nümayəndələri ilə görüş keçirilib.

Baş nazir terror aktı nəticəsində xəstəxanaya yerləşdirilmiş insanlara da baş çəkib. Şəhərin baş həkimi Devid Metis bildirib ki, hazırda 39 yaralı müalicə alır, 7 nəfər evə buraxılıb. Onun sözlərinə görə, bir nəfər 4 yaşlı uşaq isə ilkin tibbi yardımdan sonra müalicəsini davam etdirmək üçün qonşu şəhərdəki hospitala göndərilib. "Daha iki azyaşlı hələ xəstəxanada müalicə alır, onların vəziyyəti sabitdir və həyatları üçün heç bir təhlükə yoxdur".

Baş həkim onu da əlavə edib ki, müsəlman əhaliyə qarşı törədilmiş terror aktı zamanı bu və ya digər səbəbdən zərər çəkmiş insanların hamısı üçün qaynar xətt təşkil olunub, onlar istər həkim müayinəsi, istərsə də psixoloji yardım üçün müraciət edə bilərlər.

Xatırladaq ki, martın 15-də Yeni Zelandiyanın Kraystçerç şəhərinin Hagley Park qəsəbəsində yerləşən Əl-Nur və Linvud məscidlərinə cümə namazı zamanı silahlı hücum edilib. Həmin vaxt məscidlərdə yüzlərlə insan ibadətlə məşğul imiş. Son məlumatlara görə, terror aktı nəticəsində azı 49 nəfər həlak olub, 48 nəfər yaralanıb. Hadisənin 28 yaşlı avstraliyalı Brenton Tarrant və daha iki nəfər tərəfindən törədildiyi bildirilir. Terrorçulardan biri qadındır.

*Paşa ƏMİRCANOV, "Xalq qəzeti"*

# Tereza Mey ölkəsinin Avropa Parlamentinə seçkilərdə iştirakına qarşı çıxır



**BBC-nin yaydığı məlumata görə, Böyük Britaniyanın Baş naziri Tereza Mey ölkəsinin Avropa İttifaqından (Aİ) çıxmasına dair sazişi növbəti dəfə parlamentdə müzakirəyə çıxarmaya bilər. Bunu yerli mediaya müsahibəsində ölkənin ticarət naziri Filip Hammond deyib. O, əlavə edib ki, hökumət səsvermənin nəticələrindən arxayın olmayacağı təqdirdə sözügedən layihəni yenidən parlamentin müzakirəsinə təqdim etməyəcək.**

Xatırladaq ki, sənəd yanvarın 15-də və martın 12-də parlamentin İcmalar Palatasında müzakirəyə çıxarılsa da, hər dəfə səs çoxluğu ilə rədd edilib. Öz növbəsində Tereza Mey ölkə əhalisinin may ayında Avropa Parlamentinə keçiriləcək seçkilərdə iştirakına da münasibət bildirib. Hökumət başçısının fikrincə, "Brexit"ə dair səsvermədən 3 il sonra yenidən avroparlamentə deputat seçmək yolverilməzdir. Yeri gəlmişkən, Britaniyanın sözügedən seçkilərdə iştirakı məsələsi Avropada çaşqınlıq yaradıb. Bir müddət əvvəl Avstriya Kansleri Sebastyan Kurts da Böyük Britaniyanın bu seçkilərdə iştirakına qarşı çıxmışdı. Yanvarda Avropa Parlamenti Britaniya üçün ayrılmış 73 yerin yarısının ləğvini, digər hissəsinin isə ölkələr arasında bölüşdürməsini təklif etmişdi. "Brexit"lə bağlı qeyri-müəyyənlik fonunda sözügedən məsələnin necə həll ediləcəyi hələ ki, bəlli deyil.

*Mahmud QƏRİBOV, "Xalq qəzeti"*

# Texasda yangın



**ABŞ-ın Texas ştatının Hyuston şəhərinin Dik-Park şəhərciyində neft məhsulları saxlanılan anbar yanıb. Xəsarət alanlar haqqında heç bir məlumat verilmir.**

Yerli hakimiyyət orqanlarının nümayəndələri şəhərcikdə yaşayan 32 min sakindən xahiş ediblər ki, mümkün qədər evdən çıxmasınlar.

Yerli KİV-lərin məlumatına görə, yanğınsöndürənlərin səyinə baxmayaraq, alov getdikcə güclənib.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*


## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

***Dövlət Miqrasiya Xidmətinə yol sənədi blanklarının fərdiləşdirilməsi (doldurulması) üçün proqram təminatı və texniki avadanlıqların satınalınması məqsədilə təkliflər sorğusu keçirir***

**1.** Sorğunun predmeti- Dövlət Miqrasiya Xidmətinə yol sənədi blanklarının fərdiləşdirilməsi (doldurulması) üçün proqram təminatı və texniki avadanlıqların satınalınması.

**2.** Təkliflər sorğusu proseduru 18 aprel 2019-cu il saat 11.00-da Azərbaycan Respublikası Maliyyə Nazirliyində keçiriləcəkdir.

**3.** Yol sənədi blanklarının fərdiləşdirilməsi (doldurulması) üçün proqram təminatının hazırlanması və texniki avadanlıqların quraşdırılması (və ya buna oxşar) sahəsində iş təcrübəsi, peşəkarlığı, texniki və maliyyə imkanları olan iddiaçılar sorğuda iştirak edə bilərlər.

**4.** Təkliflər 2019-cu il aprelin 17-si saat 11.00-dək Maliyyə Nazirliyinin vergi siyasəti və gəlirlər şöbəsinin müdafiəli sənədlərin dövriyyəsi sektoruna təqdim olunmalıdır.

**5.** Əlaqə telefonu - (99412) 404-46-94 E-mail: aydin.isayev@maliyye.gov.az

**6.** Təkliflər sorğusu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçirilir.



## "Bakı Elektrik Quraşdırma-2" ASC səhmdarlarının nəzərinə!

5 may 2019 -cu il saat 10.00-da "Bakı Elektrik Quraşdırma-2" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

**1.** Səhmdar cəmiyyətin 2018-ci il fəaliyyətinin yekunlarına dair idarə heyətinin hesabatı və müəssisənin balansının təsdiqi.

**2.** Digər məsələlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu-050 -327-20-02.

Ünvan: Bakı şəhəri, Nizami rayonu, Ə.Nəvai küçəsi 13.


## Hava proqnozu

➲ **Martın 19-da**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər bəzi yerlərdə çiskin olacağı, axşam isə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 4-6, gündüz 7-9, Bakıda gecə 4-6, gündüz 7-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** arabir yağış, bəzi yerlərdə qar yağacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək. Gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, dağlıq ərazilərdə 5-7 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** arabir qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 0-5 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 1-6, gündüz 7-12 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 4-9 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Axşam bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 1-6, gündüz 8-13 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı,dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Dağlarda duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 4-6, gündüz 8-12 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Akim Bədəlova anası

**GÜLLƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Balaxanı Maşınqayırma Zavodu" ASC-nin kollektivi Mina xanıma əzizi, "Azneftkimyamaş" ASC-nin sədri

**ƏLİ QARAXANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 7426
SİFARİŞ 902
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00